HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 11 (701) ▪ 19 mart 2014 www.vergiler.az Qiyməti: 40 qəp.


# Şirvanşahlar Sarayı Kompleksində yeni muzey ekspozisiyası yaradılmışdır

## Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ekspozisiya ilə tanış olmuşlar

*«İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Bakının qədim tarixinin rəmzlərindən olan, min illik tarixə malik Şirvanşahlar dövləti hökmdarlarının iqamətgahı, orta əsr Şərq memarlığının nadir incilərindən biri, UNESCO-nun Dünya İrsi siyahısına daxil edilmiş Şirvanşahlar Sarayı Kompleksində yeni muzey ekspozisiyasını təqdim etmişdir.*



Dövlət tarix-memarlıq qoruq-muzey statusunu almış Şirvanşahlar Sarayı Kompleksi tarixində ilk dəfə olaraq qonaqları müasir dünya standartlarına cavab verən muzey ekspozisiyası ilə qarşılayacaqdır. İçərişəhər ərazisində yerləşən çoxsaylı tarixi abidələrin qorunub saxlanılması, bərpası və təbliği sahəsində həyata keçirilən genişmiqyaslı işlər Prezident İlham Əliyevin milli mədəni irsimizə göstərdiyi daimi diqqət və qayğısı nəticəsində mümkün olmuşdur.

Ölkəmizin mədəni dəyərlərinin, o cümlədən zəngin tarixi-memarlıq irsinin incilərindən biri olan İçərişəhərin qorunmasında və dünyada tanıdılmasında Azərbaycanın birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun böyük rolu xüsusi qeyd edilməlidir. Məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə maddi-mədəniyyət abidələrimizin, xalqımızın zəngin mənəvi irsinin qorunması və təbliği istiqamətində müxtəlif layihələrin ardıcıl olaraq həyata keçirilməsi nəticəsində Azərbaycan mədəniyyəti dünya miqyasında tanınmağa başlamışdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Şirvanşahlar Sarayı Kompleksində yeni yaradılmış muzey ekspozisiyası ilə yaxından tanış olmuşlar. Bildirilmişdir ki, Kompleksdə muzey ekspozisiyasının hazırlanması prosesində abidənin tarixi, memarlıq xüsusiyyətləri, saray həyatı və burada yaşamış hökmdarlar haqqında elmi tədqiqatlar aparılmış, müvafiq məlumatlar toplanaraq sistemləşdirilmişdir. Yeni ekspozisiyanın yaradılmasına yerli və xarici mütəxəssislər cəlb olunmuş və bu işlər dünya muzeylərinin tərtibatı sahəsində ixtisaslaşan Avstriyanın «Arteks» şirkəti ilə birgə həyata keçirilmişdir. Ekspozisiyada zəngin muzey eksponatları ilə yanaşı, videoproyeksiya, animasiyalı multimedia, audio və video təqdimatlardan da geniş istifadə olunmuşdur. Bununla yanaşı, Şirvanşahlar Sarayı Kompleksində qonaqlar ilk dəfə multimedia bələdçilərindən də faydalana biləcəklər. «İpad Mini» bazasında hazırlanmış multimedia bələdçisi vasitəsilə ekspozisiyanın mövzuları ilə bağlı audio yazını Azərbaycan, ingilis, rus, alman və fransız dillərində dinləmək, müvafiq foto və video materiallarla tanış olmaq mümkün olacaqdır. Sarayın taxt-tac zalının tərtibatı və burada nümayiş etdirilən eksponatlar və video təqdimatlar Şirvanşahlar dövründə olan ab-havanı və interyer elementlərini təsəvvür etməyə imkan yaradacaq, Şirvanşahların tarixinin həcmli animasiyalı modeli isə buraya gələnlərdə xüsusi maraq doğuracaqdır. Muzeydə, həmçinin, saray həyatı, şəhər memarlığı, etnoqrafiya, musiqi, xəttatlıq, arxeologiya kimi maraqlı mövzular da təqdim olunur.

Dövlətimizin başçısı və xanımı kompleksin ayrı-ayrı sahələrini gəzmiş, burada yaradılan şəraitlə tanış olmuşlar. Qeyd olunmuşdur ki, yeni muzey ekspozisiyası, həmçinin, Saray Kompleksinin ikimərtəbəli yaşayış binasının əvvəllər bura gələnlər üçün bağlı olan aşağı mərtəbəsini də əhatə edir. Həmin mərtəbənin otaqlarında Şirvanşahların dənizdən müdafiə istehkamına - Bayıl Qəsrinə aid geniş ekspozisiya da təqdim edilir. Bununla yanaşı, muzey ekspozisiyasına hazırlıq mərhələsində Saray Kompleksinə daxil olan yaşayış binasının divarlarının əzəli daş hörgüsü bərpa edilmiş, ərazidə abadlıq işləri aparılmışdır.

# Rusiya regionları ilə əlaqələr genişlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Rusiya Federasiyasının Sverdlovsk vilayəti ilə ölkəmiz arasında mövcud uzunmüddətli dostluq əlaqələrinə toxunan qubernator Yevgeni Kuyvaşev demişdir: «Bu əlaqələrin əsası Azərbaycan xalqının ümummilli lideri, böyük şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulmuşdur».

O, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Sverdlovsk vilayətinə səfərini və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin qeyd olunduğunu məmnunluqla xatırlatmışdır. Yevgeni Kuyvaşev Ural Federal Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzinin açılmasını əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirmişdir.

Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini və Azərbaycan müəssisələri ilə uğurlu işbirliyi qurulduğunu vurğulayan Yevgeni Kuyvaşev ölkəmizlə Sverdlovsk vilayəti arasında ticarət dövriyyəsinin artan templərlə genişləndiyini qeyd etmişdir.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası və onun subyektləri arasında ticarət dövriyyəsinin yüksələn xətlə inkişaf etdiyini və bunun üçün bütün şəraitin yaradıldığını demişdir. Prezident İlham Əliyev Sverdlovsk vilayətində xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə göstərilən böyük ehtirama görə minnətdarlığını ifadə etmişdir. Dövlətimizin başçısı Rusiya Federasiyasında yaşayan azərbaycanlıların və Azərbaycanda yaşayan rusların ölkələrimizin inkişafına töhfə verdiklərini məmnunluqla qeyd etmiş, bu səfərin əməkdaşlığımızın gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığını demişdir.

# Novruz bayramınız mübarək!

Hər bir insan dünyaya göz açdığı gündən işığa, hərarətə, günəşə can atdığı kimi, ayrı-ayrı xalqlar, fərqli toplumlar da tarix boyunca təbiətin qış yuxusundan oyanıb cana gəlməsinə, gecə ilə gündüzün bərabərləşməsinə, havaların istiləşməsinə, əkinçilik fəaliyyətləri üçün təbiətin əlverişli şərait yaratmasına, otların torpağı dəlib üzünü göyə tutmasına, ağacların tumurcuqlarının çırtlamasına, güllərin-çiçəklərin açmasına bir inanc kimi yanaşıblar. İnsanlar baharın gəlişini yeni bir başlanğıc kimi bayram ediblər. Baharın gəlişi, qaranlıqla işığın rəmzi olan gecə ilə gündüzün bərabərləşməsi, demək olar ki, bütün xalqların ilkin təsəvvüründə yeni günün, yeni dövranın başlanğıcı kimi yer tutur.

Baharın gəlişinin türk xalqlarının da inanc sistemində, qədim adət-ənənələrində öz yeri olmuşdur



və bunların çoxu günümüzə qədər davam etməkdədir. Xalqımızın qədim inanclarından birinə görə, Novruz axşamında ürəkdə tutulan diləklər çin olur, arzular həyata keçir, başqalarından eşidilən xoş söz insan həyatına xoşbəxtlik gətirir. Bu baxımdan, Novruz xoş niyyətlərdən ilham alan saf könüllərin bayramıdır.

Əziz oxucularımız! Bu bayram axşamı gəlin qəlblərimizi, dünüşcələrimizi xoş diləklərə kökləyək, öz ocağımıza, ailəmizə arzuladıqlarımızı başqalarına da arzulayaq. «Vergilər» qəzeti adından hər birinizi Novruz bayramı münasibətilə təbrik edir, ömrünüzə əbədi işıq, evlərinizə-ocaqlarınıza bin-bərəkət, həyatınıza firavanlıq, könüllərinizə sevinc, gözlərinizə gülüş arzulayırıq.

# Fransanın keçmiş Baş naziri Prezident İlham Əliyevin qəbulunda olmuşdur



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Fransa Respublikasının keçmiş Baş naziri Dominik de Villpeni qəbul etmişdir.*

Dominik de Villpen ölkəmizin əldə etdiyi yüksək iqtisadi inkişaf tempinə görə Prezident İlham Əliyevi təbrik etmişdir. Azərbaycandakı iqtisadi artıma toxunan fransalı qonaq bu cür əhəmiyyətli nəticələrin Avropada da olmasını arzu etdiklərini vurğulamışdır. O, Şərq ilə Qərb arasında körpü rolunu oynayan, dünyəvi dəyərləri cəmiyyət üçün prioritet hesab edən Azərbaycanın regiondakı rolunu xüsusi qeyd etmişdir. Keçmiş Baş nazir ölkəsinin Azərbaycan ilə tərəfdaşlıq əlaqələrini inkişaf etdirməkdə maraqlı olduğunu demişdir.

Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı ilə yanaşı, ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsinə də böyük önəm verildiyini bildirmişdir. Fransanın Azərbaycan üçün əhəmiyyətli tərəfdaşlardan biri olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında güclü siyasi əlaqələrin mövcud olduğunu demişdir. İqtisadi sahədə əlaqələrin inkişafına toxunan Prezident İlham Əliyev əməkdaşlığımızın bu istiqamətdə daha da genişləndirilməsi üçün qarşılıqlı marağın olduğunu bildirmişdir.

# Azərbaycan Əfqanıstanda sabitliyin qorunmasına öz töhfəsini verir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Əfqanıstan İslam Respublikasının xarici işlər naziri Zarar Ahmad Osmaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

Azərbaycan ilə Əfqanıstan arasında dostluq və tərəfdaşlıq əlaqələrinin səviyyəsinin razılıq doğurduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəkləməsinin önəmini qeyd etmişdir. Prezident İlham Əliyev Azərbaycanın Əfqanıstanda sabitliyin və əmin-amanlığın qorunması istiqamətindəki fəaliyyətini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirmişdir. Ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunan dövlətimizin başçısı bu sahədə də əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi istiqamətində işlərin aparılmasının zəruriliyini qeyd etmişdir.

Xarici işlər naziri Zarar Ahmad Osmani Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzainin salamlarını dövlətimizin başçısına çatdırmış, bildirmişdir ki, Əfqanıstan hoküməti Azərbaycan ilə uzunmüddətli uğurlu əməkdaşlıqdan məmnunluq duyur.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət, sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Dövlətimizin başçısı Prezident Həmid Kərzainin salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Əfqanıstan İslam Respublikasının Prezidentinə çatdırmağı xahiş etmişdir.


2 | Dünya Bankının nümayəndələri Vergilər Nazirliyində olmuşlar

3 | Vergilər Nazirliyi yeni ideyalara açıq dövlət qurumudur

4 | Səmərəli islahatlar informasiya açıqlığı sahəsində liderliyi təmin edir

5 | Nağdsız ödənişlərlə bağlı yeni layihə

# Dünya Bankının nümayəndələri Vergilər Nazirliyində olmuşlar



*Dünya Bankının Azərbaycan üzrə baş iqtisadçısı xanım Mona Prasadın rəhbərlik etdiyi nümayəndə heyəti Vergilər Nazirliyində olmuşdur.*

Qonaqları qəbul edən vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov qonaqları salamlayaraq son dövrlərdə ölkəmizin vergi sistemində aparılan islahatlar haqqında geniş məlumat vermişdir.

Nazir müavini qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hökumət qarşısında qeyri-neft sektorunun daha böyük sürətlə inkişaf etdirilməsi, cari büdcə xərclərinin əsasən vergi və digər daxilolmalar hesabına təmin olunması kimi mühüm vəzifə qoymuşdur. Bu vəzifələrin yerinə yetirilməsi üçün ölkəmizdə beynəlxalq təcrübəyə əsaslanan müasir innovativ vergi inzibatçılığının qurulması istiqamətində məqsədyönlü işlər aparılır, informasiya texnologiyalarının hərtərəfli tətbiqi ilə bağlı müvafiq tədbirlər görülür. N.Əmirov vergi sistemində və vergi inzibatçılığında islahatların aparılması prosesinin davam etdiriləcəyini, vergidən yayınma hallarının qarşısının alınması üçün daha səmərəli nəzarət mexanizmlərin tətbiq olunacağını, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndiriləcəyini vurğulamışdır.

Xanım Mona Prasad Azərbaycanın vergi sistemində aparılan islahatları, xüsusilə də elektron xidmətlər sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı görülən işləri yüksək qiymətləndirərək İKT-nin region ölkələri ilə müqayisədə respublikamızda daha sürətlə inkişaf etdiyini vurğulamışdır. O, informasiya texnologiyalarına əsaslanan layihələrin genişləndirilməsini müsbət hal kimi qiymətləndirmiş, Dünya Bankı və Azərbaycan hökuməti arasında qarşılıqlı əməkdaşlığın davam etdirilməsinin zəruriliyini qeyd etmişdir.

Görüşdə vergi siyasəti və inzibatçılığı üzrə potensial əməkdaşlıq sahələri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

# Vergilər Nazirliyində görüş keçirilmişdir

*Mart ayının 17-də vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov Slovakiya Respublikasının Maliyyə Nazirliyinin Dövlət katibi cənab Vazil Hudak və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.*



Qonaqları salamlayan N.Əmirov Azərbaycan iqtisadiyyatı və ölkəmizin vergi sistemi haqqında qonaqlara ətraflı məlumat vermiş, vergi inzibatçılığı və informasiya texnologiyalarının tətbiqi, ƏDV depozit hesabı, vergi ödəyicilərinə göstərilən elektron xidmətlər, elektron hökumət quruculuğu və elektron hökumətdən mobil hökumətə keçidlə bağlı Vergilər Nazirliyi tərəfindən görülən işlər barədə danışmışdır. O qeyd etmişdir ki, Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında həm dövlətlərarası, həm də vergi orqanları arasında əlaqələr inkişaf etməkdədir və iki ölkə arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair saziş çərçivəsində müntəzəm danışıqlar aparılır. Nazir müavini növbəti mərhələdə iki ölkənin vergi orqanları arasında praktiki əməkdaşlığın, o cümlədən vergi inzibatçılığı sahəsində mövcud olan müsbət təcrübələrin öyrənilməsi məqsədilə qarşılıqlı səfərlərin təşkil edilməsinin vacibliyini qeyd etmişdir.

Slovakiya Respublikasının Maliyyə Nazirliyinin Dövlət katibi Vazil Hudak görüşdən məmnunluğunu ifadə etmiş, ölkəsinin Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verdiyini, son illər ərzində qarşılıqlı olaraq yüksək səviyyəli nümayəndə heyətlərinin səfərlərinin təşkil olunduğunu qeyd etmişdir. Bildirilmişdir ki, «Azərbaycan Respublikası Hökuməti və Slovakiya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya» layihəsi üzrə danışıqlar aparılır və yaxın vaxtlarda başa çatdırılması planlaşdırılır.

Görüşdə hər iki ölkə arasında əməkdaşlığın cari potensialı və inkişaf imkanları üzrə fikir mübadiləsi aparılmışdır.

# Çağrı Mərkəzinə daxil olmuş müraciətlərin statistikası

***2014-cü ilin fevral ayında Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə daxil olan 15870 müraciətlərin 2544-ü səsli menyu vasitəsilə, 13326-sı canlı əlaqə zamanı cavablandırılmışdır.***

Canlı əlaqə zamanı vergi ödəyicilərindən daxil olan müraciətlər arasında vergi növləri (28,6%), elektron xidmətlər (14,8%), elektron imza (5,6%), qeydiyyat (17,4%), büdcə, vergi ödəyiciləri və vergi orqanlarının rekvizitləri (4,2%) barədə müraciətlər üstünlük təşkil etmişdir.

Sual xarakterli müraciətlərin 97,9%-i müfəttiş-operatorlar tərəfindən birbaşa cavablandırılmış, 2,1%-nə araşdırma aparılması üçün sual vərəqəsi tərtib edilmişdir. Hesabat dövründə canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən vergi ödəyicilərinin, ümumilikdə isə əhalinin şikayət və ərizə (məlumat) xarakterli 142 müraciəti qəbul edilərək aidiyyəti üzrə göndərilmişdir. 1080 halda vergi ödəyiciləri ikitərəfli mesaj xidməti vasitəsilə məlumatlandırılmışdır.

# Vergi orqanlarına işə qəbul olunmuş gənc kadrlarla görüş




*Vergilər Nazirliyində vergi orqanlarına işə qəbul edilmiş gənc kadrlarla keçirilmiş görüşü vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov açaraq gənclərə uğurlar arzulamışdır.*

İnsan resurslarının idarə olunmasının Vergilər Nazirliyi rəhbərliyinin daim diqqət mərkəzində saxlanıldığını vurğulayan nazir müavini əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan gəncliyi ilə bağlı iki mühüm Dövlət Proqramının təsdiq edildiyini, bu konseptual sənədlərin müasir Azərbaycan gəncliyinin dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafı üçün möhkəm zəmin yaratdığını diqqətə çatdırmışdır. Bildirilmişdir ki, Vergilər Nazirliyi ölkəmizdə işə qəbulu test üsulu əsasında keçirməyə başlamış ilk mərkəzi icra hakimiyyəti orqanıdır. İndiyədək keçirilmiş 8 müsabiqə nəticəsində vergi xidmətinə 977 nəfər gənc kadr işə qəbul olunmuşdur. Bu, vergi xidməti əməkdaşlarının təxminən 42%-i deməkdir. Hazırda vergi orqanlarında çalışanların 40%-dən çoxunu yaşı 35-dən aşağı olan gənclər təşkil edir. Onların arasında qadınların sayı ildən-ilə artmaqdadır.



Vergi xidməti əməkdaşlarının fəaliyyətinin özəlliklərindən söz açan nazir müavini Vergilər Nazirliyində kadrların sonrakı hazırlığı və təkmilləşdirilməsi məqsədilə insan resurslarının inkişafı üzrə konsepsiyadan danışmış, gənc kadrlara öz tövsiyələrini vermişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın şöbə müdiri Afaq Hüseyn, Təhsil Nazirliyinin əlavə təhsil sektorunun müdiri Zöhrab Kəlbəliyev, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Təşkilat şöbəsinin müdiri Arzu Bağırov çıxış edərək, gənclərə hər cür şərait yaradılmasının Azərbaycan Respublikasının gənclər siyasətinin tərkib hissəsi olduğunu vurğulamış, Vergilər Nazirliyinin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirmiş və gənclərə uğurlar arzulamışlar.

Gənc mütəxəssis Gülnar Mirzəyeva işə qəbul prosesində yaradılmış şəffaf şəraitdən razılığını bildirmiş, gənclərin işlə təmin olunması sahəsində dövlətimizin diqqət və qayğısına cavab olaraq, vergi xidməti əməkdaşının üzərinə düşən məsuliyyətli vəzifələri şərəflə daşıyacaqlarına söz vermişdir.

Tədbirin sonunda işə təyin olunmuş yeni kadrlara xidməti vəsiqələr təqdim edilmişdir.

# Yanvar-fevral aylarında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 1 milyard 233 milyon 621,7 min manat vəsait daxil olmuşdur

Bu məbləğin 35,4%-i mənfəət vergisinin, 26%-i əlavə dəyər vergisinin, 11,7%-i fiziki şəxslərin gəlir vergisinin, 11,5%-i aksizlərin, 15,4%-i isə digər vergilərin payına düşür. Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 618 milyon 613,7 min manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 64 milyon 493,8 min manat çoxdur.

Yanvar-fevral aylarında respublika üzrə 16 min 768, yəni ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5% çox vergi ödəyicisi qeydiyyata alınmışdır. 1 mart 2014-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 552 min 112 təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,3% çoxdur. 2014-cü ilin yanvar-fevral ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 91,1% təşkil etmişdir.

# VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

***2013-cü ilin yekunlarına görə***

- *gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin bəyannaməsini;*
- *mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər mənfəət vergisinin bəyannaməsini;*
- *əmlak vergisinin ödəyicisi olan müəssisələr əmlak vergisinin bəyannaməsini;*
- *Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər, o cümlədən büdcə təşkilatları yol vergisinin bəyannaməsini*

***mart ayının 31-dən gec olmayaraq***

*vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.*

***Diqqətinizə çatdırırıq ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 57-ci, 58-ci və 59-cu maddələrinə əsasən:***

- *vergi hesabatını və vergi öhdəliyinin yaranması barədə arayışı müəyyən olunan müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına əsasən **40 manat** məbləğində;*
- *büdcəyə çatası vergi məbləğini hesabatı təqdim etməməklə yayındırdıqda, vergi ödəyicisinə yayındırılmış vergi məbləğinin **50 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir; və*
- *vergilər qanunla müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, ancaq bir ildən çox olmamaqla, vergi ödəyicisindən ödənilməmiş vergi məbləğinin **0,1 faizi** miqdarında faiz tutulur.*

***Əlavə məlumat almaq üçün «195» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.***

**Azərbaycan Respublikası Vergilər Nazirliyi**

# Vergilər Nazirliyi yeni ideyalara açıq dövlət qurumudur

*Avropa Komissiyasının Texniki Yardım və İnformasiya Mübadiləsi (TAIEX) proqramı çərçivəsində «Azərbaycan Respublikası Vergilər Nazirliyində Fəaliyyətin Qiymətləndirilməsi Sisteminin Təkmilləşdirilməsi üzrə Ekspert Missiyası» öz işini yekunlaşdırmışdır.*

Missiya üzvləri martın 11-dən 15-dək Vergilər Nazirliyinin ayrı-ayrı strukturlarının fəaliyyəti ilə yaxından tanış olmuş, müvafiq təhlil və qiymətləndirmələr aparmışlar.

Məlumat üçün bildirək ki, 2013-cü il 19 mart tarixli «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»ın 16-cı bəndində Vergilər Nazirliyinin fəaliyyətinin qiymətləndirilməsi sahəsində təkmilləşdirmələrin aparılması nəzərdə tutulmuşdur. Avropalı ekspertlərin missiyasının məqsədi də fəaliyyətin qiymətləndirilməsi sahəsində mövcud vəziyyətin təhlili, habelə təkmilləşmələri nəzərdə tutan təkliflərin hazırlanması idi.



***Ekspert Missiyasının üzvü, Avstriya Federal Maliyyə Nazirliyinin Vergi və Gömruk Administrasiyasının Menecment Departamentinin rəis müavini Eva Mariya*** qəzetimizə açıqlamasında səfər çərçivəsində Azərbaycanın qiymətləndirmə sahəsində təcrübəsi ilə yaxından tanış olduqlarını diqqətə çatdırmışdır. Qeyd edilmişdir ki, müasir vergi inzibatçılığının səmərəliliyini təmin edən mühüm amillərdən biri də fəaliyyətin qiymətləndirilməsi və təkmilləşdirilməsidir: «Missiyanın məqsədi Azərbaycan Respublikası Vergilər Nazirliyinin müraciəti əsasında onun fəaliyyətini qiymətləndirmək, idarəçiliyin necə həyata keçirildiyini öyrənməkdir. Həmçinin, fəaliyyətin qiymətləndirilməsi sahəsində mütərəqqi beynəlxalq təcrübəni azərbaycanlı həmkarlarımızla bölüşdük. Hesab edirik ki, Vergilər Nazirliyinin qarşısında dayanan vacib məqsədlərdən biri gələcəkdə fəaliyyətin daha da səmərəli olmasını təmin etməkdir».

Eva Mariya demişdir ki, fəaliyyətin qiymətləndirilməsi qarşıya qoyulmuş strateji məqsədlər əsasında həyata keçirilir. Bildirilmişdir ki, proses vergi daxilolmalarının və ümumən fəaliyyətin səmərəliliyinin artırılmasına xidmət edir: «Bu kriteriyalar əsasında həm işçilərin, həm də strukturların fəaliyyətinin qiymətləndirilməsini həyata keçirdik. Qiymətləndirmə ilə bağlı təqdimatlar zamanı Avstiya və Azərbaycanın vergi sistemlərinin oxşar və fərqli cəhətlərini təhlil etdik. Bundan başqa, Avstriyada fəaliyyətin qiymətləndirilməsi ayrı-ayrı işçilərin deyil, ümumilikdə komandanın və ya strukturun yekun fəaliyyətinə nəzərən həyata keçirilir. Oxşar cəhətlər barədə onu demək olar ki, həm Avstriya, həm də Azərbaycanda tətbiq olunan vergilər eynidir. Hər iki ölkənin vergi sistemində İKT-nin son yeniliklərinin tətbiqi də oxşar cəhətlərdən biri kimi qeyd oluna bilər. Bu texnologiyalar operativ təhlillər aparmaqla hesabatlar hazırlamaq imkanı yaradır».

Ekspertin sözlərinə görə, səfər müddətində Azərbaycanın vergi orqanlarında fəaliyyətin qiymətləndirilməsi sisteminin üstün və zəif cəhətləri nəzərdən keçirilərək təhlil olunmuş, nazirliyin əməkdaşları ilə birgə fəaliyyətin təkmilləşdirilməsinə dair vəzifələr müəyyənləşdirilmişdir: «Azərbaycanın vergi orqanlarında fəaliyyətin qiymətləndirilməsi sisteminin üstün və zəif tərəfləri nəzərdən keçirildi. Nazirlik əməkdaşları ilə birlikdə sistemin daha da təkmilləşdirilməsi məqsədilə hədəflər müəyyən olundu, fəaliyyət planının hazırlanması barədə razılığa gəlindi. Fəaliyyət planında gələcəkdə həyata keçiriləcək tədbirlər öz əksini tapacaq».

Eva Mariya Avstriya və Azərbaycanın vergi xidməti orqanları arasında əməkdaşlığın davam etdirilməsi zəruriliyini də bildirmişdir: «Səfər çərçivəsində azərbaycanlı həmkarlarımızla əməkdaşlığın gələcək istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı razılığa gəldik».



***Avstriya Federal Maliyyə Nazirliyinin İnformasiya sistemlərinə nəzarət və menecment departamentinin eksperti Trost Andreas*** isə Azərbaycanda mütərəqqi vergi sisteminin olduğunu diqqətə çatdırmışdır. Bildirmişdir ki, Avstiya vergi sisteminin də Azərbaycandan bəhrələnə biləcəyi məsələlər var: «Azərbaycanın Vergilər Nazirliyinin istifadə etdiyi sistem görülən işlərin gündəlik olaraq sənədləşdirilməsi nöqteyi-nəzərindən yaxşı bir baza təşkil edir. Mən deyərdim ki, hətta bizim də Azərbaycanın Vergilər Nazirliyinin fəaliyyətindən bəhrələnə biləcəyimiz məsələlər var. Xoş təəssürat yaradan budur ki, nazirlik inkişaf etmək, dəyişilmək üçün yeni ideyalara çox açıq dövlət qurumudur. İnanırıq ki, Vergilər Nazirliyinin peşəkar əməkdaşları yeni layihələri uğurla həyata keçirəcəklər».

***Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Natiq Şirinov*** bildirmişdir ki, nazirlik Avropa İttifaqının TAIEX proqramı çərçivəsində bir sıra layihələri uğurla reallaşdırır: «Bu, Avropa İttifaqının texniki aləti olan TAIEX proqramı çərçivəsində Vergilər Nazirliyində fəaliyyət göstərmiş sayca üçüncü missiyadır. Bundan əvvəlki iki missiyanın fəaliyyəti Azərbaycanın vergi qanunvericiliyinin Avropa İttifaqının müvafiq qanunvericiliyinə uyğunlaşdırılması mövzuları ilə bağlı idi. Həmin missiyaların fəaliyyətlərinin nəticələri nazirlik üçün çox faydalı olmuşdur. Sonuncu Ekspertlər Missiyasının fəaliyyəti isə vergi inzibatçılığında fəaliyyətin qiymətləndirilməsi mövzusu ilə bağlı idi. Vergilər Nazirliyinin dəvəti ilə tədbirdə iştirak etmiş ekspertlər fəaliyyətin qiymətləndirilməsi sahəsində qabaqcıl təcrübəyə malik Avstriya mütəxəssisləridir».

N.Şirinovun sözlərinə görə, Vergilər Nazirliyi fəaliyyətin qiymətləndirilməsi sahəsində mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsinə və tətbiqinə üstünlük verir: «Fəaliyyətin qiymətləndirilməsi 2005-ci ildən tətbiq edilir. Söhbət təkcə hansısa orqanın və ya onun strukturunun ümumi fəaliyyətinə deyil, eyni zamanda insan amilinin özünə və əməyinə də qiymətin verilməsindən gedir. Hazırda Vergilər Nazirliyində istifadə olunan fəaliyyətin qiymətləndirilməsi sistemi nazirliyin bilavasitə əməkdaşlıq etdiyi ölkələrin təcrübələrinə əsasən təkmilləşdirilmişdir. Lakin hazırkı qloballaşma və inteqrasiya şəraitində Vergilər Nazirliyinin əldə etdiyi nailiyyətlərin daha da təkmilləşdirilməsinə ehtiyac var. Bu mənada, Ekspertlər Missiyasının hazırladığı təkliflər fəaliyyətimiz üçün faydalı olacaqdır».

*Azərbaycanın Vergilər Nazirliyinin istifadə etdiyi sistem görülən işlərin gündəlik olaraq sənədləşdirilməsi nöqteyi-nəzərindən yaxşı bir baza təşkil edir*

**Samir MUSTAFAYEV**

# Vergi sistemi

***Vergi daxilolmaları.*** 2013-cü ildə dövlət büdcəsinin Vergilər Nazirliyi üzrə proqnoz tapşırığı 104,1% icra edilərək büdcəyə 6 milyard 664,0 milyon manat vəsait daxil olmuşdur. 2012-ci il ilə müqayisədə dövlət büdcəsinə 638,5 milyon manat və ya 10,6% artıq vəsait səfərbər edilmişdir. Bununla yanaşı, qeyri-neft sektoru üzrə 2013-cü il ərzində dövlət büdcəsinə 3 milyard 760,0 milyon manat proqnoza qarşı 3 milyard 761,9 milyon manat (2012-ci ilə nisbətən 475,3 milyon manat və ya 14,5% çox) vəsaitin daxil olması təmin edilərək proqnoza 100,1% əməl olunmuşdur.

Vergi ödəyicilərinin sayı 2014-cü ilin əvvəlində 537828 olmuşdur ki, bu da ötən illə müqayisədə 11,6% artıqdır. 2010-cu illə müqayisədə isə ödəyicilərin sayındakı artım 47,7% olmuşdur. Hüquqi şəxslərin sayı son 3 ildə 25%, fiziki şəxslərin sayı isə 52,7% artaraq 2014-cü il 1 yanvar tarixinə, müvafiq olaraq, 82598 və 455230 təşkil etmişdir. 2013-cü ildə elektron qaydada qeydiyyatdan keçmiş ödəyicilərin sayı 30791 (onlardan 27414-ü fiziki şəxs, 3377-si hüquqi şəxsdir) olmuşdur.

***Vergi borclarının alınması.*** Vergi borclarının əsas məbləğinin (faizlər və maliyyə sanksiyaları nəzərə alınmadan) həcmi 2013-cü ildə 2012-ci illə müqayisədə 3,3% azalaraq 1 milyard 296,9 milyon manat təşkil etmişdir. Bu göstərici 2010-cu illə müqayisədə 2 dəfəyədək azalmışdır (2010-cu ilin sonuna vergi borclarının həcmi 2 milyard 485,1 milyon manat təşkil edirdi). Vergi borclarının əsas hissəsi hüquqi şəxslərin payına düşür. Onların ümumi borclardakı xüsusi çəkisi 97,9%-dir.




Qeyri-neft sektoru üzrə vergi borclarının dinamikasına baxdıqda, burada borcların məbləği 6,9% azalmışdır.

***Vergi nəzarəti tədbirləri.*** 2013-cü ildə həyata keçirilmiş səyyar vergi yoxlamalarının sayı azalsa da, il ərzində hesablanmış və ödənilmiş məbləğlərdə artım müşahidə olunmuşdur. Bu da bir vergi ödəyicisinə düşən göstəricinin yüksəlməsinə səbəb olmuşdur. Nəticə etibarilə səyyar vergi yoxlamaları üzrə keyfiyyət göstəriciləri artmışdır.

Kameral yoxlamaların sayında 2013-cü ildə əvvəlki ilə nisbətən əhəmiyyətli artım olmuşdur. Say etibarilə real kameral vergi yoxlamalarının sayı 2 dəfəyədək yüksəlmiş, buna uyğun olaraq kameral vergi hesablamaları və ödəmələrinin də həcmi artmışdır.

Eyni qaydada, operativ vergi nəzarəti tədbirlərinin də sayı 2013-cü ildə əvvəlki illərə nisbətən artmışdır. Bu sahədə də həyata keçirilən nəzarət tədbirləri nəticəsində hesablanmış və ödənilmiş verginin məbləğində artım müşahidə olunmuşdur.

Rəqəmlərin təhlili göstərir ki, operativ nəzarət tədbirləri nəticəsində bir yoxlamaya düşən hesablanmış və ödənilmiş vergi məbləği artmış, kameral vergi yoxlamasında isə artım müşahidə olunmamışdır. Buna səbəb kameral vergi yoxlamalarının sayının təxminən iki dəfəyədək artmasıdır: bu artım sayının əsas hissəsini bir yoxlamaya düşən orta hesablama və ödəmə göstəricisindən aşağı olan kameral yoxlamalar əhatə edir. Buna baxmayaraq, kameral vergi yoxlamasından hesablanmış vergilərin məbləği əvvəlki ilin müvafiq dövrünə nisbətən 18,6%, ödəmələrin həcmi isə 39% artmışdır.

*Vergi ödəyicilərinin sayı 2014-cü ilin əvvəlində 537828 olmuşdur ki, bu da ötən illə müqayisədə 11,6% artıqdır*



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

**Rakurs**

# Vergi öhdəliyi və onun yerinə yetirilməsi

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, vergi dedikdə dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödəniş nəzərdə tutulur. Tərifdən də göründüyü kimi, verginin ödənilməsi vergi ödəyicisi olan hər bir şəxs üçün məcburi olmaqla, onun öhdəliyidir. Məcəllənin başqa bir maddəsində vergi öhdəliyi anlayışı verilmişdir. Həmin maddəyə əsasən, vergi ödəyicisinin Vergi Məcəlləsində göstərilən hallarda və qaydada müəyyən edilən vergini (o cümlədən cari vergi ödəmələrini) ödəmək vəzifəsi onun vergi öhdəliyi hesab olunur. Şəxsin vergi öhdəliyi onun vergi orqanında qeydiyyata alındığı, həmçinin vergi qanunvericiliyi ilə müəyyən olunmuş halların meydana çıxdığı andan yaranır. Vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsaslar, həmçinin vergi öhdəliyinin yerinə yetirilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir. Vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehlik daşıyır.

Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində hər bir vergi növünün ödənilməsi müddətləri müəyyən olunmuşdur. Bununla əlaqədar vergi öhdəliklərinin yerinə yetirilməsi dedikdə, ödənilməli vergi məbləğinin qanunvericiliklə müəyyən edilmiş müddətlərdə və qaydada ödənilməsi başa düşülür. Burada o da nəzərə alınmalıdır ki, vergi ödəyicisinin hesablarında və ya kassasında vəsaitin, habelə onun əmlakının olub-olmamasından asılı olmayaraq vergi öhdəliyinin yerinə yetirilməsi məcburidir. Bu zaman vergi öhdəliklərinin yerinə yetirilməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş ardıcıllıqla həyata keçirilir.

Mülki Məcəllənin 965-ci maddəsi ilə müəyyən olunmuşdur ki, öhdəliyi olan şəxsin hesabındakı pul vəsaitinin məbləği hesaba qarşı irəli sürülən bütün tələbləri ödəməyə kifayət etdikdə, bu vəsaitin hesabdan silinməsi müştərinin sərəncamlarının və hesabdan silməyə dair digər sənədlərin, o cümlədən dövlət büdcəsinə ödənişlə bağlı sərəncamların daxil olduğu ardıcıllıqla (təqvim ardıcıllığı ilə) həyata keçirilir. Hesabdakı pul vəsaiti müştərinin sərəncamlarını və ona qarşı irəli sürülmüş bütün tələbləri yerinə yetirməyə kifayət etmədikdə isə dövlət büdcəsinə, məcburi dövlət sosial sığorta haqları üzrə büdcədənkənar dövlət fonduna və bələdiyyələrin büdcələrinə hesabdan vəsaitin silinməsi üçüncü növbədə həyata keçirilir.

*Vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsaslar, həmçinin vergi öhdəliyinin yerinə yetirilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir*

Ümumiyyətlə, vergi qanunvericiliyinin tələblərinə görə, vergi öhdəliklərinin yerinə yetirilməsi vergi ödəyicisinin özü tərəfindən könüllü surətdə yerinə yetirilir və onun başqa şəxslərin üzərinə qoyulması yolverilməzdir.

Vergi Məcəlləsi ilə müəyyən olunmuşdur ki, vergi ödəyicisi vergi öhdəliyini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə vergi orqanı hesablanmış vergilərin 5 gün müddətində ödənilməsinə dair vergi ödəyicisinə bildiriş göndərir. Eyni zamanda, vergi öhdəliyinin vaxtında yerinə yetirilməsinin təmin olunmasında vergi ödəyicilərinin məsuliyyətinin artırılması üçün vergi ödəyicilərindən verginin gecikdirildiyi hər bir gün üçün (bir ildən çox olmamaqla) ödənilməmiş vergi məbləğinin 0,1%-i həcmində faiz tutulur.

Bununla yanaşı, vergi öhdəliyi vaxtında yerinə yetirilmədiyi hallarda, Vergi Məcəlləsində vergi orqanları tərəfindən ödəyicilərin bank hesablarına icra sənədi olan sərəncamın qoyulması və vergi ödəyicisinin əmlakının siyahıya alınması kimi tədbirlər nəzərdə tutulmuşdur. Məcəlləyə əsasən, vergi ödəyicisi tərəfindən hesablanmış və bəyan edilmiş vergilər vergi orqanının göndərdiyi bildirişdə göstərilən 5 gün müddətində ödənilmədikdə vergi orqanı vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından verginin dövlət büdcəsinə alınması haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra (ödəniş) sənədi olan sərəncam verir. Vergi Məcəlləsində nəzərdə tutulmuşdur ki, vergi ödəyicisi vergi öhdəliyini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, yaranmış vergi borclarının, habelə həmin öhdəliyin yerinə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi onun əmlakı siyahıya alına bilər.

Vergi öhdəliyinin tənzimlənməsinə dair qanunvericiliyin vacib normalarından biri də öhdəliyə xitam verilməsi ilə bağlıdır. Ümumiyyətlə, vergi öhdəliyinə xitam verilməsi vergi tam ödənildikdən sonra baş verir. Qanunvericilikdə vergi öhdəliyinə xitam verilməsinin digər halları da nəzərdə tutulmuşdur: Vergi Məcəlləsində göstərilir ki, vergi ödəyicisi vəfat etmiş və ya Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ölmüş hesab edildiyi (bu zaman vergi borcları vərəsəlik əmlakının dəyəri hədlərində ödənilir), ləğvetmə komissiyası tərəfindən büdcə ilə bütün hesablaşmalar aparıldıqdan sonra vergi ödəyicisi olan hüquqi şəxs ləğv olunduğu, qanunvericiliklə müəyyən edilmiş qaydada müflis olma nəticəsində ləğv edilmiş borclu vergi ödəyicisinin məhkəmənin qərarı ilə ödənilməsindən imtina edilmiş tələbləri ləğv edildiyi hallarda da vergi öhdəliyinə xitam verilməsi nəzərdə tutulmuşdur.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlakın siyahıya alınması

***Vergi öhdəliyinin icrasının təmin olunması məqsədi ilə vergi orqanı tərəfindən əmlakım siyahıya alınmışdır. Siyahıya alınmış əmlak hesabına vergi öhdəliyimin icrası hansı formada təmin ediləcəkdir?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (VM) 90-cı maddəsinə əsasən, vergi ödəyicisinin əmlakı siyahıya alındıqdan sonra 30 gün müddətində vergi öhdəliyi yerinə yetirilmədikdə, vergi orqanı vergi öhdəliyinin icrasının təmin olunması məqsədi ilə siyahıya alınmış əmlakın zəruri və kifayət olan həcmdə ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edə bilər.

Siyahıya alınmış əmlakın yararlılıq müddəti bu maddədə göstərilən müddət başa çatanadək bitirsə, vergi orqanı dərhal məhkəməyə müraciət edə bilər.

Vergi ödəyicisinin siyahıya alınmış əmlakının əmtəə birjalarının nəzdində yaradılmış ixtisaslaşdırılmış təşkilat (hərracın təşkilatçısı) tərəfindən ixtisaslaşdırılmış açıq hərraclarda satılması haqqında məhkəmənin qərarı qüvvəyə mindikdən sonra qətnamə ilə təmin edilmiş borca faizin hesablanması dayandırılır və VM-in 90.4-cü maddəsinin müddəaları nəzərə alınmaqla vergi borcunun dövlət büdcəsinə ödənilməsi icra məmuru tərəfindən təmin edilir.

Əmlakın hərracda satılması məqsədi ilə vergi ödəyicisinin siyahıya alınmış əmlakı, qanunvericiliyə müvafiq olaraq tənzimlənən qiymətlərin tətbiq olunduğu hallar istisna edilməklə, «Qiymətləndirmə fəaliyyəti haqqında» Qanuna uyğun olaraq qiymətləndirici tərəfindən qiymətləndirilir.

Məhkəmə qərarlarına əsasən verilən icra vərəqələri daxil olduqdan on gün müddətində qiymətləndirici icra məmuru tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada dəvət olunur. Qiymətləndiricinin xidməti məhkəmənin qərarı ilə əmlakı satılan vergi ödəyicisi tərəfindən ödənilir.

Əmlakın hərracda satışı məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında əmlakın ona dair heç bir şərt qoyulmadan satışıdır. Bu zaman ən yüksək qiymət təklif etmiş alıcı həmin əmlak üzərində mülkiyyət hüququnu əldə edir.

Birinci hərrac baş tutmadıqda və ya siyahı üzrə ayrı-ayrılıqda əmlakın satışı baş tutmadıqda növbəti hərrac təşkil edilir. İkinci hərracda qiymət birinci hərracda satılmayan əmlakın və ya onun ayrılıqda siyahı üzrə satılmayan hissəsinin ilkin satış qiymətinin 10%-dək, üçüncü və dördüncü hərraclarda isə müvafiq olaraq 20 və 40%-dək aşağı salına bilər. Bu zaman ikinci və sonrakı hərraclar arasındakı müddət 10 gündən, yararlılıq müddəti başa çatan (yaxud bu müddət ərzində qurtaran) əmlakın növbəti hərracları arasındakı müddət isə üç gündən çox olmamalıdır. Yararlılıq müddəti başa çatmış yeyinti məhsullarının hərraca yenidən qida məhsulları qismində çıxarılması qadağandır. Bu əmlak heyvanların yemləndirilməsi üçün istifadəyə yararlı olduqda, qanunvericiliklə müəyyən edilmiş qaydada beş gün müddətində yenidən qiymətləndirilərək hərracda satılmalıdır.

VM-in 90.4-cü maddəsinə əsasən, əmlakın satılmasından əldə edilən məbləğlər əvvəlcə tənbeh tədbirinin yönəldilməsi və əmlakın satışı üzrə xərclərin, sonra isə hesablanmış vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsinə yönəldilir. Vəsaitin qalan hissəsi, vergi ödəyicisinin yeni borcu yaranmadıqda, üç bank günü ərzində vergi ödəyicisinə qaytarılır.

Əmlakın satışından daxil olan pul vəsaiti vergilər, faizlər və maliyyə sanksiyaları üzrə dövlət büdcəsinə yaranmış borcların ödənilməsi üçün kifayət etmədikdə və ya əmlak qanunvericilikdə nəzərdə tutulmuş qaydada hərracda satılmadıqda borcların dövlət büdcəsinə ödənilməsini təmin etmək məqsədi ilə icra məmuru tərəfindən vergi ödəyicisinin həmin borclarının qalan məbləği həcmində digər əmlakı qanunvericilikdə nəzərdə tutulmuş qaydada siyahıya alına bilər.

# Səmərəli islahatlar informasiya açıqlığı sahəsində liderliyi təmin edir

## *Ekspertlər Vergilər Nazirliyinin şəffaflıq və hesabatlılığın təmini sahəsindəki nailiyyətlərini yüksək dəyərləndirirlər*

Vergi inzibatçılığının təkmilləşdirilməsi, ödəyicilərə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirən Vergilər Nazirliyi həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə ictimaiyyət üçün açıq və şəffaf dövlət qurumu kimi tanınır. Nazirliyin həyata keçirdiyi islahatların əsasında da idarəetmə sistemində şəffaflıq və hesabatlılığın maksimum səviyyədə təmin edilməsi məramı dayanır.

Azərbaycan Prezidentinin 2012-ci il 5 sentyabr tarixli «Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın 7-ci bəndinə əsasən, nazirlik vergi ödəyicilərinin zəruri məlumatlarla təmin edilməsi və təbliğat işinin təkmilləşdirilməsi; vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun «Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında Kodeksi»nə uyğunlaşdırılması sahəsində tədbirlərin görülməsi; vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirir.

Ən çox elektron xidmətlər göstərən dövlət qurumu olması, vergi ödəyicilərinin məlumatlandırılması sahəsində innovativ yeniliklər tətbiq etməsi, internet saytını (www.taxes.gov.az) «e-hökumət» quruculuğu prinsipləri əsasında davamlı şəkildə təkmilləşdirməsi şəffaflığa və açıqlığa zəmin yaradan amillər kimi nəzərə alınır. Xüsusilə də elektron xidmətlərin genişləndirilməsi, bir tərəfdən, vətəndaş-məmur təmaslarının minimuma endirilməsi, digər tərəfdən isə fəaliyyətin şəffaflığı və informasiya açıqlığının təmini baxımından yüksək dəyərləndirilir.

«Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin rəhbəri Osman Gündüzün qəzetimizə açıqlamasına əsasən, dövlət qurumlarının informasiya açıqlığı səviyyəsini öyrənmək məqsədilə aparılmış monitorinq 2013-cü ilin iyulundan 2014-cü ilin yanvarına qədər olan dövrü əhatə edib. Monitorinq - mərkəzi və yerli icra qurumlarının saytlarında yerləşdirilən məlumatlar və elektron xidmətlər əsasında aparılıb.

### Vergilər Nazirliyi 6-cı ildir ki, «Dövlət qurumlarının informasiya açıqlığı» hesabatında birinci yerdədir

Xatırlatmaq lazımdır ki, Media Hüquq İnstitutunun hələ 2013-cü il dekabrın 24-də 67 dövlət qurumunun internet resurslarının monitorinqi əsasında açıqladığı «Dövlət qurumlarının onlayn şəffaflığı» hesabatında Vergilər Nazirliyi birinci yeri tutmuşdu. Nazirlik «Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin 74 mərkəzi və 67 yerli icra orqanının internet resurslarının monitorinqi nəticəsində hazırlayaraq bu günlərdə ictimaiyyətə açıqladığı «Dövlət qurumlarının informasiya açıqlığı» hesabatında da növbəti dəfə birinci olub. Ümumilikdə, Vergilər Nazirliyinin artıq 6-cı ildir ki, liderliyini qoruyub saxlaması ictimaiyyətlə əlaqələrə və informasiya açıqlığına həssas yanaşmanın, habelə bu sahədə sistemli tədbirlərin həyata keçirməsinin bariz sübutudur.

Qiymətləndirmələr zamanı nazirliyin

Osman Gündüz bildirib ki, Vergilər Nazirliyinin informasiya açıqlığı üzrə aparılan müxtəlif monitorinqlərdə yüksək yerlərdə olması innovativ yenilikləri tətbiq edən və bu sahədə davamlı islahatlar həyata keçirən dövlət qurumu olması ilə bağlıdır: «Vergilər Nazirliyi vergi ödəyicilərinə elektron xidmətlərin təşkili, cəmiyyətin vergi sahəsində maarifləndirilməsi, fəaliyyəti barədə ictimaiyyətə operativ və dolğun məlumatların verilməsi istiqamətində müxtəlif layihələr həyata keçirir. Dünyanın e-xidmətlər sahəsində ən mütərəqqi təcrübəsinin öyrənilərək tətbiqi edilməsi üçün konkret işlər görür.

Nazirlik 2013-cü ildə də bir sıra yeni elektron xidmətlər təqdim edib, xüsusilə «ASAN imza»nın tətbiqi mühüm yeniliklərdən olub. Bunlarla yanaşı, vergi ödəyicilərinə elektron formada bildirişlərin göndərilməsi, internet saytının funksional imkanlarının genişləndirilməsi, «Açıq qapı» günlərinin, vergilərə dair müxtəlif forumların keçirilməsi, qeyri-hökumət təşkilatları və media ilə işin düzgün təşkili Vergilər Nazirliyinin öndə getməsini təmin edir. Monitorinq zamanı nazirliyin öz fəaliyyəti barədə məlumatları mütəmadi, yenilənmiş əsaslarla rəsmi internet səhifəsində yerləşdirməsi, vergi ödəyicilərini geniş məlumatlandırması, onlara hüquqi yardım göstərməsi və digər tədbirlər nəzərə alınıb. İnanırıq ki, nazirlik informasiya açıqlığı üzrə islahatları bundan sonra da davam etdirəcək».

Korrupsiyaya qarşı Mübarizə Fondunun rəhbəri Vasif Mövsümov hesab edir ki, Vergilər Nazirliyinin son illər informasiya açıqlığı üzrə hesabatlarda liderlik etməsi öz fəaliyyətində informasiya-kommuniya texnologiyalarının mütərəqqi yeniliklərinin tətbiqi ilə şərtlənir. Ekspertin fikrincə, bu sahədə islahatların beynəlxalq təcrübə əsasında davamlı və sistemli davam etdirilməsi korrupsiyaya qarşı mübarizə və şəffaflıq baxımından mühüm nəticələr verir: «Ölkə başçısının siyasi iradəsi ilə son illər dövlət orqanlarının fəaliyyətində şəffaflığın, informasiya açıqlığının artırılması, korrupsiyaya zəmin yarada biləcək halların aradan qaldırılması istiqamətində geniş iş aparılır. Son on ildə ictimaiyyət üçün açıq dövlət qurumlarından olan Vergilər Nazirliyi də elektron xidmətlərin tətbiqi və genişləndirilməsi sahəsində fəaliyyətini artırıb. Vergi orqanı əməkdaşları ilə vergi ödəyicilərinin təmaslarının minimuma endirilməsi vergi sistemində antikorrupsiya tədbirlərinin müsbət səmərə verməsinə gətirib çıxarıb.

Fevral ayında keçirilmiş III Vergi Forumu bir daha göstərdi ki, nazirliyin həyata keçirdiyi islahatlar mahiyyətcə şəffaflığın və hesabatlılığın təmin olunmasına yönəlib. Bu baxımdan, 2013-cü ildə «Elektron audit»in və «Vergi partnyorluğu sazişi»nin, «ASAN imza»nın tətbiqinə başlanılmasının əhəmiyyətini xüsusi qeyd etməyə dəyər. Nazirliyin saytı da öz funksional imkanları ilə geniş informasiya əldə etməyə şərait yaradır».

**S.MUSTAFAYEV**

# Regionların inkişafında keyfiyyətcə yeni mərhələ

## *«Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» bölgələrdə sahibkarlığın inkişafına yeni təkan verəcək*

İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, iqtisadiyyatın sabit tempini qorumaq üçün regional inkişafda tarazlılığın, tarixi məşğulluq ənənələrinin qorunub saxlanılması vacib şərtlərdəndir. Son 10 ildə Azərbaycanda həyata keçirilən iqtisadi siyasətdə də regionların sosial-iqtisadi inkişafının təmin edilməsi məsələsi əsas hədəflərdən biri olmuşdur. Bu məqsədlə qəbul edilmiş dövlət proqramlarında bölgələrin tarixi məşğulluq ənənələri və mövcud potensialı nəzərə alınmış, qlobal və yerli çağırışlar təhlil edilmiş, yüksək rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması ilə bağlı prioritetlər göstərilmişdir.

İqtisadiyyatın bütün sahələrdə proporsional inkişafı ciddi investisiya tələb edən məsələ olduğundan, dövlətin yalnız son illərdəki maliyyə imkanları bu sahədə qlobal layihələrə başlamaq, problemlərin həllinə kompleks yanaşmaq imkanı vermişdir. Neft strategiyasının konkret nəticələrə yol açması iqtisadi inkişaf sahəsində məhz maliyyə çatışmazlığı səbəbindən uzun illərdən bəri yığılıb qalmış bir çox problemlərin məhz hazırkı mərhələdə həlli məsələsini aktuallaşdırmış, dövlət investiyalarının həcmcə artımını təmin etmiş, regionların tarazlı və davamlı inkişafı tədbirlərinin reallaşdırılmasına yaxşı imkanlar açmışdır.

Ölkə başçısının 2004-cü il 11 fevral tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı», habelə 2009-cu il 14 aprel tarixli «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» son 10 ildə ölkənin regionlarının, habelə qeyri-neft sektorunun davamlı və tarazlı inkişafına, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə imkan yaratmışdır. Hər iki Dövlət Proqramının icrası dövründə respublikanın iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə 240 sərəncam imzalanmışdır.

Ümumilikdə, ötən 10 ildə regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən siyasətin nəticəsi olaraq, ümumi daxili məhsul 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış, ölkə üzrə orta illik iqtisadi artım 12,9% təşkil etmişdir. Son 10 ildə strateji valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə artmışdır. Son 10 ildə dövlət büdcəsinin gəlirləri 16 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə, pensiyalar 9,6 dəfə, minimum əməkhaqqının məbləği 11,7 dəfə artmış, yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44,7%-dən 2013-cü ildə 5,3%-ə düşmüşdür.



Həyata keçirilən çevik büdcə-vergi siyasəti nəticəsində dövlətin iqtisadi qüdrətinin daha da artırılması, regionların, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, istehsal və infrastrukturun müasir tələblərə uyğun yenidən qurulması, xalqın rifah halının yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmişdir. 2003-cü ildə ölkə iqtisadiyyatına qoyulmuş investisiyaların ümumi həcminin yalnız 26,8%-i daxili mənbələrdən maliyyələşirdisə, 2013-cü ildə daxili investisiyaların xüsusi çəkisi 76,7%-ə çatmışdır.

2004-2013-cü illərdə daxili investisiyalar 14,6 dəfə, qeyri-neft sektoruna investisiyalar 12,9 dəfə artmış, regionların inkişafına bütün mənbələr hesabına 50,7 milyard manat vəsait yönəldilmişdir. Ötən 10 il ərzində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,2 milyondan çox yeni, o cümlədən 900 min daimi iş yeri açılmış, 55,6 min yeni müəssisə yaradılmışdır. Yeni açılmış iş yerlərinin 80 faizə yaxınının, regionların payına düşməsi də kifayət qədər mühüm göstəricidir.

Bu müddət ərzində innovasiya xarakterli texnologiyaların tətbiqi, yeni müəssisələrin yaradılması, müəssisələrin istehsal potensialının gücləndirilməsi nəticəsində sənayedə 2,7 dəfə artım qeydə alınmışdır. Bütün bunlar sənayedə işgüzar fəallığın artmasına, yeni iş yerlərinin açılmasına, kiçik sahibkarlığın inkişafına güclü təkan vermişdir. Qeyri-neft sektorunun davamlı inkişafının təmini, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması baxımından Sumqayıt Texnologiyalar Parkının, Sumqayıt Kimya Sənaye və Balaxanı Sənaye parklarının, Yüksək Texnologiyalar Parkının yaradılması da mühüm əhəmiyyət kəsb edir.

Ölkə başçısının 2014-cü il 27 fevral tarixli sərəncamı ilə «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın təsdiq edilməsi regionların inkişafı sahəsində 2004-cü ildən başlanmış tədbirlərin uğurlu davamına təminat yaradır. Dövlət Proqramı ölkədə makroiqtisadi sabitliyin təmin olunması, regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yeni müəssisə və iş yerlərinin yaradılması, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, əhalinin rifah halının daha da yaxşılaşdırılması və yoxsulluq səviyyəsinin azaldılması kimi prioritetləri özündə ehtiva edir.

«Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın başlıca məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası və regionların inkişafı istiqamətində tədbirlərin davam etdirilməsidir. Proqramda müəyyənləşdirilmiş məqsədlərə nail olunması üçün regionlarda infrastruktur təminatının, o cümlədən əhalinin kommunal xidmətlərlə təminatının daha da yaxşılaşdırılması nəzərdə tutulur. Eyni zamanda, ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafının sürətləndirilməsi, əhalinin, xüsusilə kənd əhalisinin məşğulluq səviyyəsinin artırılması və yoxsulluğun azaldılması kimi mühüm vəzifələr nəzərtə tutulmuşdur.

2014-2018-ci illərdə orta illik inflyasiya tempinin və milli valyutanın məzənnəsinin məqbul səviyyədə saxlanılması; vergi və gömrük dərəcələrinin optimal həddə müəyyənləşdirilməsi; kənd təsərrüfatı məhsulları istehsalçılarının stimullaşdırılması tədbirlərinin davam etdirilməsi; taxıl istehsalının artırılması və rəqabət qabiliyyətinin gücləndirilməsi; istehsalçıların ixrac yönümlü fəaliyyətinin stimullaşdırılması; ümumi daxili məhsulda qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin xüsusi çəkisinin yüksəldilməsi və digər məsələlər diqqət mərkəzində olacaqdır.

Son dərəcə əhatəli, sistemli və məqsədyönlü səciyyə daşıyan Dövlət Proqramı qarşıdakı beş ildə indiyədək qazanılmış uğurlu nəticələrin qorunub saxlanılması və inkişaf etdirilməsi, respublikamızın perspektiv inkişaf hədəflərinin dəqiq müəyyənləşdirilməsi, ümumi potensialın regional inkişaf tədbirlərinə yönəldilməsi baxımından əlahiddə əhəmiyyətə malikdir. Yeni Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Azərbaycanın dinamik inkişafını daha da sürətləndirəcək, regionlara göstərilən diqqət və qayğı hərtərəfli inkişaf və tərəqqi üçün etibarlı zəminə çevriləcəkdir.

**Samir MUSTAFAYEV**

# Bu il 90-dan artıq sənaye müəssisəsi istifadəyə veriləcək

*Prezident İlham Əliyev 2014-cü ilin «Sənaye ili» elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq olunması haqqında sərəncam imzalayıb. Sənədə əsasən, yerli təbii və iqtisadi resurslara əsaslanan müəssisələrin yaradılması, mövcud müəssisələrin modernləşdirilməsi, ənənəvi istehsal sahələri ilə yanaşı, yeni istehsal sahələrinin fəaliyyətə başlaması, sənaye parklarının, sənaye məhəllələrinin yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, bu sahədə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi nəzərdə tutulur.*

mütəxəssislər Yeni Zelandiya, Almaniya, İspaniya, Malayziya, Cənubi Koreya və digər dövlətlərdə təcrübə mübadiləsi aparıblar. Öyrənilmiş təcrübə əsasında yeni layihələr hazırlanıb. Mövcud modellər sırasında texnoparkların başqa bir forması olan Yüksək Texnologiyalar Parkının (YT Parkı) yaradılması daha məqsədəuyğun hesab edilir. Buna görə də Tədbirlər Planında İKT sənayesinin yeni modeli hesab edilən YT Parkının yaradılmasına mühüm yer verilib.

Bu cür layihələrin həyata keçirilməsi yeni yaradılmış Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə (RYTN) həvalə edilib.

elektrik modulları, habelə enerjiyə qənaət edən bir milyon ədədə yaxın müxtəlif lampalar istehsal edəcək. Qiymətlər Çin istehsalçılarının bazarda təklif etdikləri məhsulların dəyərinə uyğun olacaq. Zavod günəş panelləri ilə yanaşı, enerjiyə qənaət edən LED lampaları da buraxacaq. Azərbaycanda yaxın gələcəkdə tikinti materiallarının istehsalında «yaşıl texnologiyalar»dan istifadə ediləcək.

Yüksək Texnologiyalar Parkının Pirallahı rayonunda salınması məqsədilə 50 hektar ərazi ayrılıb. İl ərzində burada zəruri infrastrukturun formalaşdırılması, maddi-texniki bazanın və ida-

## Texnopark və sənaye şəhərciklərinin yeni modellərinin tətbiqi əsas prioritetlər sırasındadır

İnnovativ təkliflərin sənaye sektorunda təşviqi məqsədi ilə İnnovasiyaların Təşviqi Qrupu yaradılacaq. Sənayeləşmə siyasətinə uyğun olaraq, 2014-cü ildə Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi, Balaxanı Sənaye Parkında müvafiq infrastrukturun qurulması və xarici investorların cəlb olunması, Gəncədə və Mingəçevirdə sənaye parklarının yaradılması, alternativ enerji qurğu və avadanlığının istehsalı üzrə yeni müəssisələrin istifadəyə verilməsi planlaşdırılır. İqtisadiyyat və Sənaye Nazirliyindən (İSN) verilən məlumata görə, bu istiqamətdə 2014-cü il uğurla başlayıb. Ötən iki ayda Sumqayıtda mis emalı zavodu, «Azərsun» sənaye parkının ərazisində yağ emalı zavodu, kağız və karton istehsalat kombinatı kimi iri sənaye müəssisələri istifadəyə verilib. Hazırda 90-dan artıq sənaye müəssisəsinin tikintisi davam etdirilir və il ərzində istifadəyə verilməsi nəzərdə tutulur.

Cari ildə texnopark və sənaye şəhərciklərinin yeni modellərinin tətbiqi də əsas prioritetlər sırasındadır. Bu sahədə Asiya və Avropanın bir sıra ölkələrinin təcrübəsini öyrənmək məqsədilə yerli

RYTN-nin şöbə müdiri İsfəndiyar Əliyevin sözlərinə görə, YT Parkı informasiya-kommunikasiya texnologiyaları, telekommunikasiya və kosmos, enerji səmərəliliyi sahələrində tədqiqatlar aparılması, yeni və yüksək texnologiyaların hazırlanması üçün zəruri infrastrukturu, maddi-texniki bazası və idarəetmə qurumları olan ərazi hesab olunur. Bu cür parkların yaradılması ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi daşıyır.

Hazırda sözügedən layihənin icrası məqsədilə ərazi seçilib. Sumqayıt şəhərində YT Parkının yaradılması işlərinə başlanılıb. Burada yüksək texnologiyalarla təchiz olunacaq 15 zavod fəaliyyət göstərəcək. Hazırda Alternativ və Bərpa Olunan Enerji Mənbələri Agentliyinin dəstəyi ilə «Azgüntex» şirkətinin inşa etdiyi yeni zavodda Almaniya istehsalı olan avadanlıqların quraşdırılmasına başlanılıb. Yeni müəssisə ildə 100 mindən çox foto-

rəetmə qurumlarının yaradılması başa çatdırılacaq. Bu ərazidə informasiya və kommunikasiya texnologiyaları, telekommunikasiya və kosmos, enerji səmərəliliyi sahələrində tədqiqatlar aparılması, yeni və yüksək texnologiyalar hazırlanacaq. YT Parkında elmi-texniki və innovasiya sahələrində elmi tədqiqat və təcrübə işləri həyata keçiriləcək.

Onu da xatırladaq ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, sənaye texnoparkları ilə bərabər, YT parklarının da inkişafını stimullaşdırmaq üçün fiziki və hüquqi şəxslər, eləcə də parkların idarəedici təşkilat və operatorlarına gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə yeddi illik vergi güzəştləri nəzərdə tutulub. Bu ərazilərdə texnoloji avadanlıqların idxalı, istehsal təyinatlı malların ixracı ilə bağlı gömrük güzəştlərinin tətbiqi, digər stimullaşdırıcı tədbirlər həyata keçiriləcək. Tədbirlər Planında müvafiq iqtisadi qurumlar qarşısında digər sənaye sahələrinin də inkişafı məqsədilə lazımi işlərin görülməsi, təşviqedici və stimullaşdırıcı addımların atılması müəyyən edilib.

**Elbrus CƏFƏRLİ**

# Turizm sektorundan gəlirlər artacaq

*Turizmə yönəldilən investisiya qısa müddət ərzində gəlir əldə etməyə imkan verir və turizmin inkişafı kənd təsərrüfatı, nəqliyyat, rabitə, ticarət və digər xidmət sahələrinə də stimullaşdırıcı təsir göstərir.*

Son 10 il ərzində ölkədə turizm şirkətlərinin sayı 74-dən 170-ə, mehmanxanaların sayı 96-dan 516-ya, yerləşdirmə yerlərinin sayı 9569-dan 32834-ə yüksəlib. Bu sektorda çalışan işçilərin sayı 2678-dən 9051-ə, ölkəyə gələn turistlərin sayı isə 767500-dən 2 milyona çatmışdır. 2003-cü ildə turizmdən gəlirlər 57,7 milyon dollar olduğu halda, 2013-cü ildə bu göstərici 1 milyard 479 milyon dollaradək artmışdır.

Azərbaycan Turizm İnstitutunun rektoru Cəfər Cəfərovun sözlərinə görə, ölkəyə xarici turistlərin cəlb edilməsi iqtisadi inkişafa və xaricdə respublikamızın turizm məkanı kimi daha çox tanınmasına böyük təsir edir. Bu, beynəlxalq reytinqlərdəki mövqeyimizə də müsbət göstərir. Dünya İqtisadi Forumunun 2013-2014-cü il üzrə «Dünya Rəqabətlilik Hesabatı»nda qlobal turizmdə rəqabətqabiliyyətlilik indeksinə görə Azərbaycan 7 pillə irəliləyib və 148 dövlət arasında 39-cu yerdə qə-

ətincə, rəqabət artdıqca müəssisə sahibləri də çalışacaqlar ki, həm qiymətə, həm də xidmətə fikir versinlər.

Kadr probleminin həlli məqsədilə Azərbaycan Turizm İnstitutu ildə 200-dən yuxarı ali təhsilli mütəxəssisi istehsalata göndərir. Bundan əlavə, ölkədə Mingəçevir Turizm Kolleci, Bakı Turizm Peşə Məktəbi də fəaliyyət göstərir. Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Turizm Assosiasiyası Türkiyənin aidiyyəti qurumları ilə birlikdə vaxtaşırı olaraq mehmanxana əməkdaşları üçün ixtisasartırma kursları təşkil edirlər. Ancaq bu da məsələni tam

üstünlük verirlər. Turizm mövsümündə hotellərin və onların yerlərinin ümumi miqdarı azlıq təşkil edir. Turizm üçün əlverişli regionlarda müasir səviyyəli özəl müalicə və istirahət mərkəzləri istifadəyə verilsə də, hələlik tələbat tam ödənilmir. Nəzərə alsaq ki, yaxın illərdə Azərbaycana gəlməsi gözlənilən turistlərin sayının 30-40% artacağı proqnozlaşdırılır, onda bu sahədə işlərin əhatə dairəsinin daha da genişləndirilməsinin zəruriliyi önə çıxır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, 2020-ci ilə qədər Azərbaycana gələn turistlərin sayının ildə 5



## Regionlarda yeni turizm zonaları yaradılacaq, turizm infrastrukturu genişləndiriləcək

rarlaşıb: «2012-2013 hesabatında ölkəmiz 144 ölkə arasında 46-cı, 2011-2012 hesabatında isə 142 ölkə arasında 55-ci yeri tutmuşdu. Hesabata görə, Azərbaycan makroiqtisadi mühit göstəricisinə görə 8-ci, əmək bazarının səmərəliliyi göstəricilərinə görə 30-cu, texnoloji hazırlıq səviyyəsinə görə 50-ci, innovasiyalara görə isə 51-ci yerdədir. Azərbaycan bu göstəricilərlə hətta Avropa Birliyinin bir sıra ölkələrini də geridə qoymağa nail olmuşdur».

Nailiyyətlərlə yanaşı, Azərbaycanda turizm sektorunda xidmətin və qiymətlərin səviyyəsi hələ də arzuolunan səviyyədə deyil. Problemin əsas səbəblərindən biri kimi, peşəkar kadrların azlığı və rəqabətin tam formalaşmaması göstərilir. Ekspertlərin qəna-

həll etmək iqtidarında deyil. C.Cəfərov hesab edir ki, 2023-cü il üçün proqnoza əsasən, turizm təhsili sahəsində müxtəlif peşələr üzrə 75600 nəfər tələb olunacaq ki, bu da indiki rəqəmlərdən 8,3 dəfə çoxdur. Onun sözlərinə görə, proqnozlaşdırılan işçilərin müxtəlif peşə ixtisaslarına görə bölgüsü beynəlxalq təcrübəyə uyğun olaraq, faiz hesabı ilə ali təhsil üzrə 20%, orta ixtisas təhsili üzrə 30-40% və peşə ixtisası təhsili üzrə 50-60% təşkil edəcək.

Daha bir problem turistlərin yerləşdirilməsi ilə bağlıdır. Hazırda Azərbaycanda mehmanxanaların sayı kifayət qədər deyil. Daha çox 2-3-4 ulduzlu hotellərin yaradılması vacib hesab olunur. Çünki orta təbəqə turistlər məhz bu tipli hotellərdə qalmağa

milyon nəfərə çatdırılması gözlənilir. Onun sözlərinə görə, gələn il Azərbaycanda ilk Avropa Oyunları, III Mədəniyyət Forumu, musiqi və idman yarışları və s. mötəbər beynəlxalq tədbirlər təşkil olunacaq. Bu cür tədbirlər son nəticədə turizm sektorunun inkişafına mühüm töhfə verəcək.

Nazir qeyd etmişdir ki, turizm sahəsinin inkişafı üçün yeni dövlət proqramları hazırlanır. Bu proqramlara əsasən, ölkənin müxtəlif yerlərində xüsusi turizm zonaları yaradılacaq: «Turizm zonasının inkişaf konsepsiyası sərmayəçilərə imkan verəcək ki, həmin ərazilərdə geniş tikinti-quruculuq işləri aparsınlar və bu sahəni inkişaf etdirsinlər».

**Rəşad SADIQOV**

# Alternativ enerjiyə keçid sürətləndirilir

*Azərbaycan təbii enerji mənbələrinə görə dünyanın zəngin ölkələrindən biri olmaqla yanaşı, böyük alternativ enerji resurslarına da malikdir. Respublikamızın iqlim şərtləri günəş və külək enerjisindən istifadə üçün münbit şərait yaradır. Hazırda ölkəmizdə alternativ enerji mənbələrinin payı təxminən 10% civarındadır.*

Hesablamalara görə, Azərbaycan illik 800 MVt-yə yaxın külək enerjisi ehtiyatına malikdir və bu, ildə təxminən 2,4 milyard kVt/saat elektrik enerjisi deməkdir. Bu isə hər il 1 milyon tona yaxın şərti yanacağa qənaət etməyə, külli miqdarda tullantıların, o cümlədən ozondağıdıcı karbon dioksidin atmosferə atılmasının qarşısının alınmasına şərait yarada bilər.



Prezident İlham Əliyev tərəfindən 2012-ci il iyunun 1-də Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Şirkətinin yaradılması haqqında imzalanmış fərman bu sahənin daha sürətli inkişafına nail olmaq məqsədi daşıyır.

Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Şirkətindən verilən məlumata görə, Azərbaycanda alternativ enerji mənbələri üzrə yeni şəbəkə sisteminin qurulması istiqamətində işlər sürətləndirilmişdir. Azərbaycanın iqtisadi rayonlarında, qəsəbə və kəndlərində, şəhərlərində enerjiyə olan ehtiyac müəyyənləşdirilir və alternativ enerji mənbələrindən maksimum istifadə oluna biləcək bölgələr seçilir. Ölkəmizə bu sahədə inkişaf etmiş xarici dövlətlər, Avropa İttifaqı (Aİ), BMT dəstək göstərir. Ölkəmizin Aİ ilə əməkdaşlığı çərçivəsində elektrik şəbəkəsinin müasirləşdirilməsi, enerji infrastrukturunun təhlükəsizliyinin artırılması, bərpa olunan enerji sektorunun inkişafı üçün proqramların və qaydaların hazırlanması nəzərdə tutulur. Azərbaycanın 2020-ci il üçün enerji siyasətinə görə, elektrik enerjisində bərpa olunan enerjinin payı 20%-ə, ümumi enerji istehlakında bərpa olunan enerjinin payı isə 9,7%-ə çatdırılmalıdır. 2014-2020-ci illəri əhatə edən dövrdə 515 meqavat gücündə biokütlə, 60 meqavat gücündə isə kiçik su elektrik stansiyaları tikiləcəkdir. Alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsi üzrə həyata keçirilən layihələr «Kioto protokolu»nun təmiz inkişaf mexanizmində nəzərdə tutulmuş karbon emissiyalarının azaldılması tələbinə cavab verir və bu istiqamətdə müvafiq metodikalar işlənib hazırlanmışdır.

Onu da qeyd edək ki, bu sahədə görüləcək işlərin ardıcıllığını və sistemliliyini təmin etmək üçün Prezident İlham Əliyev «Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı»nı təsdiq etmişdir. Proqramın əsas vəzifələri elektrik enerjisinin istehsalında alternativ enerji mənbələrinin potensialını müəyyənləşdirmək, bərpa olunan enerji mənbələrini istismara cəlb etməklə ölkənin enerji resurslarından istifadənin səmərəliliyini yüksəltmək, yeni enerji istehsalı sahələrinin yaradılması hesabına əlavə iş yerlərinin açılmasını təmin etmək, respublikanın ənənəvi enerji mənbələrinin mövcud ümumi gücü nəzərə alınmaqla alternativ enerji mənbələrinin hesabına enerji gücünün artırılması və bununla ölkənin enerji təhlükəsizliyinin təminatının yüksəldilməsinə nail olmaqdır. Dövlət Proqramına uyğun olaraq, özəl investisiya mənbələrinin bu sahəyə cəlb edilməsi istiqamətində tədbirlər həyata keçirilir.

**R.SADIQOV**

# Nağdsız ödənişlərlə bağlı yeni layihə

## «Azərpoçt» internetlə sifariş olunan bir sıra malların daşınmasına güzəştlər tətbiq edir



«Azərpoçt» MMC ölkəmizdə nağdsız ödənişlərin inkişafına dəstək vermək məqsədilə yeni bir xidmət tətbiq etməyi planlaşdırır. Təşkilatın yaxın vaxtlarda pensiyaların verilməsi prosesinə qoşulması ona şərait yaradacaq ki, Beynəlxalq Bankın istifadəçiləri üçün tətbiq olunan «Pensiya+»a oxşar xidməti reallaşdıra bilsin. «Azərpoçt» MMC-nin baş direktor müavini Rəsul Bayramovun sözlərinə görə, respublikanın bütün ərazilərini əhatə edən geniş kart infrastrukturu şəbəkəsinin olması DSMF ilə əməkdaşlıq üçün güclü əsaslar yaradır. Bu məqsədlə əldə olunmuş razılığa əsasən, «Azərpoçt» yaxın vaxtlarda əhalinin sosial müavinətlərinin verilməsinə cəlb ediləcək və bu proses çərçivəsində pensiyaçılar üçün nağdsız ödənişləri təşviq edən kampaniya keçiriləcək.

Qeyd olunduğuna görə, öz işlərini müasirləşdirən qurum son iki ildə kart və POS-terminal infrastrukturunun səviyyəsinə görə bir sıra banklardan önə keçib. Bank bazarının mühüm tərkib hissələrindən olan plastik kart bazarına inteqrasiyanı genişləndirən «Azərpoçt» artıq bir sıra dövlət strukturlarının maaşlarının verilməsini təmin edir. Müştərilərə 14 ATM vasitəsilə xidmət göstərən «Azərpoçt», demək olar ki, hər rayonda müştəri xidmətləri şöbələrində POS-terminalları quraşdırıb. ATM-lər isə paytaxt Bakı ilə yanaşı, Gəncə və Yevlax şəhərlərində də fəaliyyət göstərir. MMC-nin nağdsız ödənişlər bazarında hədəfləri böyükdür. Qurum öz müştəriləri sırasında iri dövlət təşkilatlarını, özəl şirkətləri və biznes-ticarət strukturlarını da görür, bu istiqamətdə real iş planı üzrə tədbirlərə başlayıb. Müəssisə bu ilin sonunadək 70000-ə yaxın plastik kartın emissiyasını planlaşdırır. MMC-nin bütün xidmət şəbəkəsində maliyyə xidmətlərinin göstərilməsi və təşkilatın kart infrastrukturuna inteqrasiya olunması ilə regionlarda, xüsusilə kənd yerlərində elektron ödəniş xidmətlərinə çıxış imkanlarının yaradılması da nəzərdə tutulur.

Nağdsız ödənişlərin bir istiqaməti olan elektron ticarətlə bağlı yeni layihəyə start verən «Azərpoçt», müvafiq qurumlarla əldə olunmuş razılığa əsasən, internetlə sifariş olunan və poçt vasitəsilə ölkəyə gətirilən qeyri-kommersiya, yaxud qeyri-istehsal xarakterli mallara güzəştlər tətbiq edir: həmin malların ölkəyə idxalı zamanı gömrük ödənişlərində müəyyən güzəştlər olunacaq. Başlıca məqsəd isə elektron ödənişləri stimullaşdırmaqdır.

Yeni layihənin tətbiqi vətəndaşlara şəxsi istifadələri üçün daha geniş çeşidli və dəyəri nisbətən yüksək olan mal və əşyaların beynəlxalq poçt göndərişləri vasitəsilə gətirilməsinə şərait yaradacaq. Layihə çərçivəsində internetlə sifariş əsasında ölkəyə daxil olan poçt göndərişlərinin çatdırılma keyfiyyətini yüksəltmək məqsədilə MMC tərəfindən «SMS-bildiriş» xidməti göstəriləcək. Poçt müəssisələrinə daxil olan beynəlxalq göndərişin üzərində alıcının telefon nömrəsi olduqda həmin nömrəyə operativ şəkildə «SMS-bildiriş» göndərilir. Bildirişdə vətəndaşın adına poçt göndərişinin daxil olması və göndərişi almaq üçün xidmət göstərən poçt şöbəsinə müraciət etməyin zəruriliyi barədə məlumat verilir. Yeni xidmətin tətbiqi artıq ilk müsbət nəticələrini verib, kiçik paket və bağlamaların çatdırılmasını xeyli dərəcədə sürətləndirib.

**E. CƏFƏRLİ**

# IOTA-nın işçi qrupunun növbəti iclası keçirilmişdir

*Portuqaliyanın paytaxtı Lissabon şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) Vergi borclarının idarə edilməsi üzrə işçi qrupunun beşinci iclası keçirilmişdir. Tədbirdə Avropanın 30 ölkəsinin vergi administrasiyalarının nümayəndələri və Avropa Parlamentinin üzvləri, IOTA-nın iki eksperti və Avropa Komissiyasının vergi məsələləri üzrə nümayəndəsi iştirak etmişdir.*

Mövzulara həsr olunmuş müxtəlif təqdimatların verilməsi mövzularında müzakirələr aparılmış, müxtəlif Avropa ölkələrinin bu sahələrdəki təcrübələrini əks etdirən təqdimatlar keçirilmişdir. Tədbir iştirakçıları öz ölkələrində vergi borcunun alınması prosesi barədə məlumat vermiş, vergi borcunun idarə edilməsində tətbiq edilən son yeniliklər və alətlər, bu sahədə effektivlik, risklərin qiymətləndirilməsi prosesinə nəzarətin və monitorinqin təşkili, vergi ödəyicisi ilə tərtib edilmiş uzunşöbəsinin rəisi Aqşin Cəfərov Azərbaycan Respublikasında vergi borclarının məcburi tədbirlər görülmədən könüllü ödənilməsi barədə təqdimatla çıxış etmişdir. Azərbaycan Respublikasının vergi sistemində vergi borcları ilə bağlı struktur və əməkdaşların sayı, vergi borclarının məcburi alınması tədbirləri, Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) vergi borclarının alınması prosedurları, vergi ödəyicisinin öz borcu barədə bir neçə mə-



İclas zamanı vergi borclarının könüllü ödənilməsi səviyyəsini artırmaq üçün nəzərdə tutulan tədbirlər, vergi orqanının borclu vergi ödəyicilərinə yanaşma tərzi, borcun alınma prosesi zamanı çəkilən xərclərə münasibətdə effektivliyi, ödəmə müddətlərinin uzadılması, xüsusi gümüddətli ödəmə planlarının səmərəsi, iflasa uğramış borclu vergi ödəyicilərinə münasibətdə sağlamlaşdırıcı tədbirlərin praktiki tətbiqi haqqında müzakirələr aparmışlar.

Tədbirdə iştirak edən Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsinin Borcların alınması lumat mənbələrindən («195» Çağrı Mərkəzi, SMS, internet səhifəsi) istifadə etməklə məlumat əldə etməsi, borcların idarə edilməsində istifadə olunan əməletmə modeli, «Vergi dostları» layihəsi barədə məlumat verilmiş, çoxsaylı suallar cavablandırılmışdır.

## vergi təqvimi

| MART | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | **2** |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | **9** |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | **16** |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | **23** |
| 24/31 | 25 | 26 | **27** | 28 | 29 | **30** |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

27 mart - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».
31 mart - «1», «2», «5» və «7».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi:** Müəssisənin yol vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.




# İstehlakçılar öz hüquqlarını bilməlidirlər

«İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanuna görə, hər bir istehlakçının malın keyfiyyətinə və təhlükəsizliyinə zəmanət almaq hüququ vardır. Malı satan tərəf isə malın qiyməti, istehlak xassələri, əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barədə istehlakçıya zəruri və düzgün məlumat verməyə borcludur.

İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti (ASİHM) istehlakçıların hüquqlarının etibarlı müdafiəsi, istehlak bazarının keyfiyyətsiz və təhlükəli mallardan qorunması ilə bağlı mühüm işlər həyata keçirir. Bununla belə, xidmət tərəfindən istehlakçıların hüquqlarının etibarlı müdafiəsinin təmin olunması, istehlak bazarının keyfiyyətsiz və insan sağlamlığı üçün təhlükəli mallardan qorunması məqsədilə silsilə tədbirlər həyata keçirilməsinə baxmayaraq, bəzən lazımi keyfiyyət tələblərinə cavab verməyən, insan həyatı, sağlamlığı və ətraf mühit üçün təhlükə törədən mallar bazara yol tapa bilir. Belə olan halda, istehlakçı mal alarkən onun keyfiyyəti ilə bağlı təmanat almaq üçün çətinlik qarşısında qalır.

Bunu nəzərə alaraq ASİHM Dövlət Xidməti istehlakçıların mal alarkən nələrə diqqət yetirməli olduqları məqamlara aydınlıq gətirmişdir. Bildirilmişdir ki, hər bir mal müvafiq standartın və digər normativ-texniki sənədlərin tələblərinə uyğun istehsal edilməli və yalnız bundan sonra ticarət dövriyyəsinə çıxarılmalıdır. Malların daşınması, saxlanması, satışı zamanı mövcud ticarət qaydalarına, sanitar norma və tələblərinə ciddi riayət olunmalıdır. Mallar ticarət və ictimai iaşə obyektlərinə mənşəyini, keyfiyyətini və təhlükəsizliyini təsdiq edən sənədlər (qaimə, uyğunluq sertifikatı və s.) əsasında qəbul edilməlidir. Mal alarkən malın keyfiyyət və təhlükəsizliyinə tam əmin olmaq üçün satıcıdan həmin sənədlər tələb edilməli, qeyd olunan sənədləri olmayan malları almaqdan imtina olunmalıdır.

Malın üzərində adı, istehsalçının adı və ünvanı, tərkibi, istehsal tarixi, saxlanma müddəti, saxlanma şərtləri və şəraiti, xalis çəkisi, qida dəyərliliyi, sağlamlıq üçün zəruri maddələrin normativ sənədlərin tələbləri ilə müqayisəli miqdarı, malın işlədilməsi və təhlükəsiz istifadə edilməsi üsulları və qaydaları, məhsulun hazırlanmasında istinad olunan standartın və digər normativ-texniki sənədin adı və nömrəsi, məcburi sertifikatlaşdırılmalı mallar üçün «AZS» milli uyğunluq nişanı, sertifikatlaşma barədə qeyd və s. məlumatlar öz əksini tapmalıdır.

Malların ticarət obyektində saxlanma şəraiti və rejimi qanunvericiliklə müəyyən edilmiş qaydalar və tələblərlə tənzimlənir. Həmin qaydalara görə, hazır məhsullar ticarət obyektində malların uyğunlaşma prinsipinə və temperatur rejiminə düzgün əməl etməklə çeşidlər üzrə və partiya nömrələri nəzərə alınaraq yığılmalıdır. Məhsulların saxlanması zamanı temperatur rejiminə riayət edilmədikdə onların xarici görünüşü, rəngi, iyi, dadı və s. orqanoleptik əlamətləri, fiziki-kimyəvi tərkibi dəyişə və ya məhsullar müxtəlif bakteriyalara yoluxa bilir.

Bu səbəbdən də hər bir istehlakçı mal alarkən ilk növbədə onun xarici görünüşündə, rəngində, iyində, dadında və s. əlamətlərində hər hansı dəyişikliyin olub-olmamasına diqqət yetirməlidir. Əgər malın qabında əziklər, batıqlar, kəsiklər, şişmə müşahidə edilərsə, özünəxas rəngində, iyində, dadında dəyişiklik hiss olunarsa, bu cür malları almaq olmaz.

Texnoloji proseslərə, saxlanma rejiminə və s. düzgün əməl edilmədikdə konservləşdirilmiş məhsullarda da keyfiyyət dəyişikliyi baş verə bilir. Ona görə də həmin məhsulları alan istehlakçılar diqqətli olmalıdırlar. Bu cür malların qabında pas ləkələri, zədələnmələr müşahidə olunarsa, bu, artıq ilk baxışdan həmin məhsulun keyfiyyətsiz olduğunu göstərir.

**AYTƏN**

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**4-cü MƏRHƏLƏ** *(davamı)*

Hörmətli oxucular, bir daha xatırlatmaq istəyirik ki, qəzetin 05.03.2014-cü il tarixli 09 (699)-cu və 12.03.2014-cü il tarixli 10 (700)-cu sayında Baş kitabın tərtib olunması ilə bağlı tövsiyələrimizi sizə təqdim etmişdik və bu davam edir. Nəzərinizə çatdırmaq istəyirik ki, Baş kitabın tərtib olunması qəzetin 05.02.2014-cü il tarixli 05 (695)-ci sayında, 19.02.2014-cü il tarixli 07 (697)-ci sayında və 26.02.2014-cü il tarixli 08 (698)-ci sayında göstərilən 49 sayda əməliyyata verilən ikili yazılışı əks etdirən əməliyyat jurnalı əsasında həyata keçirilir. Lakin sınaq balansının hazırlanması üçün əməliyyat jurnalında əks etdirilən 49 sayda əməliyyatın hələlik yalnız 45-ni nəzərə alacağıq və həmin 45 əməliyyat çərçivəsində Baş kitabı tərtib edəcəyik (yəni, fərz edək ki, 46, 47, 48 və 49-cu əməliyyatlar hələ məlum deyil). Baş kitab işləndikdən sonra sınaq balansı tərtib olunacaqdır. Baş kitabın tərtib olunması üzrə tövsiyələrimizi davam etdiririk (əməliyyatlar ümumi xarakter daşıdığına görə tarixləri əks etdirməyəcəyik, tarix yerində şərti olaraq əməliyyatın №-ni qeyd edəcəyik):

**№ 531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»**
*(hesabın №-si və adı)*

| № | Əməliyyatın məzmunu | Dövriyyə | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | debet | kredit | debet | kredit |
| | 01.01.2014-cü il tarixə qalıq | | | | 78900 |
| 4 | Milli valyutada bank hesabından bank xidməti haqqı silinmişdir (tutulmuşdur) | 190 | | | 78710 |
| 5 | Bank xidməti xərcləri hesablanıb | | 190 | | 78900 |
| 6 | Malsatandan generator avadanlığı alınmışdır | | 30000 | | 108900 |
| 7 | Malsatandan kassa aparatı avadanlığı alınmışdır | | 20000 | | 128900 |
| 8 | Alınmış generator və kassa aparatının dəyəri milli valyutada bank hesabından malsatana ödənilib | 50000 | | | 78900 |
| 9 | Malsatandan mallar alınmışdır (40000 ədəd, vahidinin qiyməti 4,00 manatdan) | | 160000 | | 238900 |
| 10 | Malsatandan eyni adlı mallar alınmışdır (50000 ədəd, vahidinin qiyməti 3,50 manatdan) | | 175000 | | 413900 |
| 11 | Malsatandan eyni adlı mallar alınmışdır (10000 ədəd, vahidinin qiyməti 5,00 manatdan) | | 50000 | | 463900 |
| 12 | Alınmış malların dəyərinin bir hissəsi milli valyutada bank hesabından malsatana ödənilib | 100000 | | | 363900 |
| 14 | Malsatandan ofis üçün mebel alınmışdır | | 25000 | | 388900 |
| 15 | Alınmış ofis mebelinin dəyəri kassadan malsatana ödənilib | 25000 | | | 363900 |
| 22 | Elektrik enerjisi xərci hesablanmışdır (mağaza sahəsində elektrik enerjisi istifadə olunmuşdur) | | 1500 | | 365400 |
| 23 | İstifadə olunmuş elektrik enerjisinin dəyəri kassadan "Bakıelektrikşəbəkə" ASC-yə ödənilib | 1500 | | | 363900 |
| 24 | Su sərfi xərcləri hesablanmışdır (mağaza sahəsində su istifadə olunmuşdur) | | 700 | | 364600 |
| 25 | Qaz sərfi hesablanmışdır (ofisdə qaz istifadə olunmuşdur) | | 900 | | 365500 |
| 26 | İstifadə olunmuş qazın dəyəri milli valyutada bank hesabından "Azəriqaz" ASC-yə ödənilib | 900 | | | 364600 |
| 27 | İcarəyə götürülmüş ofis binasına görə icarə haqqı hesablanmışdır | | 2500 | | 367100 |
| 31 | Telefon danışıq haqqı hesablanıb | | 270 | | 367370 |
| 34 | Alınmış malların dəyərinin bir hissəsi kassadan malsatana ödənilib | 160000 | | | 207370 |
| 37 | Ofisdə istifadə etmək üçün dəftərxana satan mağazadan dəftərxana malları alınmışdır | | 150 | | 207520 |
| 38 | Dəftərxana mallarının dəyəri kassadan ödənilmişdir | 150 | | | 207370 |

**№ 533, «Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borcları»**
*(hesabın №-si və adı)*

| № | Əməliyyatın məzmunu | Dövriyyə | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | debet | kredit | debet | kredit |
| | 01.01.2014-cü il tarixə qalıq | | | | 1700 |
| 16 | İnzibati sahədə işləyən İşçilərə əmək haqqı hesablanmışdır | | 5000 | | 6700 |
| 17 | Mağazada işləyən satıcılara əmək haqqı hesablanmışdır | | 13000 | | 19700 |
| 18 | Əmək haqqından 14% gəlir vergisi tutulmuşdur (yəni, dövlət büdcəsinə ödənilməli vergi) | 2520 | | | 17180 |
| 19 | Əmək haqqından 3% məcburi sosial sığorta haqqı tutulmuşdur | 540 | | | 16640 |
| 36 | İşçilərə kassadan əmək haqqı nağd şəklində verilmişdir | 8500 | | | 8140 |
| 41 | İşçilərə əmək haqqının bir hissəsi milli valyutada bank hesabından əmək haqqı kartlarına yüklənmişdir | 5000 | | | 3140 |

**№ 537, «Faizlər üzrə qısamüddətli kreditor borcları»**
*(hesabın №-si və adı)*

| № | Əməliyyatın məzmunu | Dövriyyə | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | debet | kredit | debet | kredit |
| | 01.01.2014-cü il tarixə qalıq | | | | 0 |
| 32 | Alınmış kreditə görə kredit faizi hesablanıb (yəni, ödənilməli olan kredit faizi) | | 12660 | | 12660 |
| 43 | Kredit faizi tam olaraq milli valyutada bank hesabından ödənilib | 12660 | | | 0 |

Davamı növbəti sayımızda

beynəlxalq panoram

# Təbii sərvət vergisinə cəlb olunan avtomobillərin siyahısı

*Martın əvvəlində Rusiyanın Sənaye və Ticarət Nazirliyi sərvət vergisinin şamil olunacağı avtomobillərin siyahısını açıqlayıb. Siyahıya qiyməti 3 milyon rubldan (1 rubl=0,0214 manat) çox olan maşınlar daxildir. Yüksək vergi haqqında normativ akt 2014-cü il yanvarın 1-dən qüvvəyə minsə də, siyahı yalnız bu günlərdə dərc edilib.*



Sərvətə aid edilən və yüksək verginin ödənilməsi tələb olunan avtomobillərin siyahısına 191 ad salınıb. Siyahıya «Lexus», «Porsche», «Toyota», «Jaguar», «Ferrari», «Cadillac», «Bentley» və s. kimi avtomobillər daxildir. İndi onların orta dəyəri 3 milyon rubldan çoxdur.

Qanuna əsasən, 1 yanvar 2014-cü ildən qiyməti 3-5 milyon rubl təşkil edən avtomobillərin nəqliyyat vergisinə 1,1-dən 1,5-dək yüksək əmsal tətbiq edilir (avtomobilin buraxılış ilindən asılı olaraq).

# Telefon istehsalçılarından tutulan vergilər azaldılır

*Hindistan hökuməti yerli istehsalçıları stimullaşdırmaq məqsədi ilə mobil telefonların istehsalı üçün vergiləri sadələşdirməyə hazırlaşır.*

Hindistanın maliyyə naziri P.Çidambaram mobil telefonların bütün kateqoriyaları üzrə aksiz vergilərinin ixtisar olunacağını bəyan etmişdir. O, əlavə etmişdir ki, yeni vergi dərəcələri belə olacaq: CENVAT krediti ilə 6% və CENVAT kreditsiz 1% (CENVAT - aksizlərə və gömrük aktlarına əsasən istehsal olunmuş mallar üzrə əlavə dəyər vergisidir).

Maliyyə naziri qeyd etmişdir ki, bu qərar mobil telefonların yerli istehsalını artıracaq və idxal olunan qurğuların miqdarını azaldacaq.

# «Google»a vergi tətbiqindən imtina edilib

*İtaliya «Google vergisi» kimi tanınan, internet şirkətlərinə tətbiq olunması nəzərdə tutulan vergidən imtina edib.*

Ölkə mətbuatı verginin ləğvini Matteo Rentsinin rəhbərlik etdiyi yeni hökumətin ilk tədbirlərdən biri adlandırır. Ötən il Eriko Lettanın başçılıq etdiyi keçmiş hökumət bu qanun layihəsini bəyənib, lakin onun tətbiqini bu ilin iyul ayına kimi təxirə salmışdı. Buna cavab olaraq Avropa Komissiyası bu hərəkətin ümumavropa normalarına zidd olması barədə İtaliyaya xəbərdarlıq etmişdi.

İtaliya qanunvericilərinin fikrinə görə, bu vergi iri internet şirkətlərinin korporativ vergi güzəştlərinin tətbiq olunduğu İrlandiya kimi dövlətlərdə reklamdan əldə olunan gəlirlərin ölkəyə köçürülməsinin qarşısını almalıdır. Qanunda yerli biznesin internet reklamını yalnız İtaliyada vergi ödəyən yerli reklam agentliklərindən satın alması nəzərdə tutulur.

# Cənubi Koreya biznesə vergiləri azaldır

*Hökumət xidmət sektoru üçün vergi yükünü azaltmağı və startapların maliyyələşdirilməsini artırmağı planlaşdırır.*

Ölkə prezidenti Pak Kın Xe innovasiyaları stimullaşdırmaq və böyüklüyünə görə Asiyanın dördüncü iqtisadiyyatının artım tempini sürətləndirmək niyyətindədir. Dövlət bir sıra sektorlarda, o cümlədən səhiyyə, maliyyə və təhsildə iştirakını məhdudlaşdıracaq.

Bununla yanaşı, hökumət maliyyə sistemi üçün risklər yaradan ev təsərrüfatlarının borcunun həcmini azaltmaq niyyətindədir. Ölkə rəhbərliyi 2017-ci ilə qədər sahibkarlığın inkişafı üçün əlavə 4 trilyon von (3,7 milyard dollar) ayırmağı planlaşdırır. Xidmət sahələrindəki artım iqtisadiyyatın ixracdan asılılığını azaltmağa və yaxın üç il ərzində ÜDM-in 4% artırılması məqsədinə nail olmağa imkan verəcəkdir.

Prezident Pak «Samsung Group» kimi böyük konqlomeratların təsirini azaltmaq hesabına kiçik şirkətlərin inkişafına kömək etmək niyyətindədir. Maliyyə Nazirliyinin proqnozuna görə, 2013-cü ildə 2,8% və 2012-ci ildə 2% olmuş ÜDM artımı cari ildə 3,9% təşkil edəcək.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

Xarici ölkələrin təcrübəsi:

# Belçika Krallığının vergi sistemi

**Əvvəli ötən sayımızda**

Vergiyə cəlb olunan gəlirlərə aşağıdakılar aiddir:

- Daşınmaz əmlakdan gəlir;
- Daşınan əmlakdan gəlir (dividend, faiz, royalti də daxil olmaqla);
- Qazanılan gəlir: Sahibkarlıq, peşə fəaliyyəti, muzdlu işdən gəlir və pensiya gəlirləri;
- Digər muxtəlif qarışıq gəlirlər.

Hər kateqoriya üzrə yekun gəlir ümumi gəlirdən gəlirin əldə edilməsinə və saxlanmasına çəkilən xərclərin çıxılması yolu ilə müəyyən edilir, hər kateqoriyanın öz qaydalarına uyğun olaraq hesablanır. Proqressiv vergi dərəcələrini tətbiq etməzdən əvvəl bəzi qanuni çıxılmalar edilə bilər. Gəlirlərin cəmi minimum dərəcə ilə vergiyə cəlb edilmədiyi halda, bəzi gəlir növləri standart dərəcə ilə ayrıca vergiyə cəlb edilə bilər.

Vergidən azad olunan əsas gəlirlərə müəyyən yığım əmanətlərindən əldə olunan faizlər aiddir. 2013-cü il üzrə gəlir vergisinin əsas dərəcələri aşağıdakılardır:

| İllik gəlir (avro) | Güzəşt məbləği |
|---|---|
| 25 990-ə qədər | 7 270 |
| 25 990 – 26 260 | 7 270-(26260-25990) güzəştin məbləğindən gəlir aralığının fərqi çıxılmaqla hesablanır |
| 26 260-dən artıq | 6 990 |

*Güzəştlər:* Vergi ödəyicisinin illik gəlirlərinin həcmindən asılı olaraq aşağıdakı məbləğlərdə vergi güzəşti tətbiq olunur:

| İllik gəlir (avro) | Dərəcələr |
|---|---|
| 0 – 8 590 | 25 |
| 8 590 – 12 220 | 30 |
| 12 220 – 20 370 | 40 |
| 20 370 – 37 330 | 45 |
| 37 330-dan artıq | 50 |

Vergi ödəyicisi fiziki qüsurlu şəxs olarsa, baza güzəştinə 1 490 avro əlavə edilir. Vergi ödəyicisinin himayəsində olan şəxslərin (valideynlər, övladlar, övladlığa götürülmüş şəxslər) hər birinin gəliri illik 3 070 avrodan çox deyildirsə, vergi ödəyicisinə həmin şəxslərin hər birinə münasibətdə ayrıca güzəşt tətbiq oluna bilər. Himayə güzəşti ailənin ən yüksək gəlirli həyat yoldaşına münasibətdə baza vergi güzəştinin cəmi şəklində tətbiq edilir. Uşaqların sayına görə aşağıdakı güzəştlər tətbiq edilir:

1 uşağa görə 1 490 avro, 2 uşağa görə 3 820 avro, 3 uşağa görə 8 570 avro, 4 uşağa görə 13 860 avro, bundan sonra hər əlavə uşağa görə 5 290 avro vergi güzəşti tətbiq edilir.

*Zərərlər:* Hər hansı bir gəlir kateqoriyası üzrə zərər digər kateqoriya üzrə gəlir hesabına çıxıla bilməz. Lakin zərərin qazanılmış gəlirlə əvəzləşdirilməsi məhdudlaşdırılmamış müddətə gələcək dövrə keçirilə bilər. Zərər daşınar və daşınmaz əmlak üzrə gəlirlərlə əvəzləşdirilə bilməz. Digər gəlirlər kateqoriyası üzrə zərər peşə fəaliyyətindən kənar fəaliyyətdən gəlirlə və ya müəyyən daşınmaz əmlakdan kapital gəlirləri ilə bağlıdırsa, beş il müddətinə gələcək dövrə keçirilə bilər.

*Ödəmə mənbəyində tutulan vergilər:* Belçikada işçilərin əməkhaqqı və direktorların mükafatları işəgötürən tərəfindən ödəmə mənbəyində vergiyə cəlb olunur. Ödəmə mənbəyində tutulmuş vergilər yalnız avans odənişləri olub yekun vergi öhdəliyində nəzərə alınır. Artıq odənilmiş vergi məbləği qaytarılır. Daxili və xarici mənbələrdən dividend və faizlər ödəmə mənbəyində vergitutma obyektidir. Ödəmə mənbəyində tutulmuş vergi məbləği rezidentin gəlir vergisi öhdəliyindən çıxılır. Dividendlər və faizlər üçün ödəmə mənbəyində vergitutmanın ümumi dərəcəsi 25%-dir. Faizlərin aşağıda qeyd olunan növlərinə azaldılmış 15% dərəcəsi tətbiq olunur:

- 2001-ci ilin 24 noyabr və 2 dekabr tarixlərində buraxılmış və alınmış Belçika dövlət istiqrazları;
- adi əmanət hesablarından əldə olunan faizlərin 1880 avrodan artıq hissəsi.

2012-ci ildə 20020 avro məbləğindən artıq dividend və faizlərdən əlavə 4% dərəcə ilə vergi tutulurdu.

Rezident fiziki şəxslərə ödənilən royalti və icarə haqları (uzunmüddətli), icarə müqavilələri, istifadə hüquqları və daşınar əmlak üzrə imtiyazlarla bağlı ödənilirsə, ödəmə mənbəyində 25% dərəcə ilə vergiyə cəlb olunur. 1880 avrodan az bank əmanətləri üzrə faizlər vergidən azaddır. Bu məbləğdən yuxarı olan faizlər 15% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur.

*Vergi dövrü:* Fiziki şəxslər üçün vergi ili təqvim ilidir. Qiymətləndirilmə ili vergi ilindən sonrakı təqvim ili hesab edilir. Məsələn, 2012-ci ildə əldə olunan gəlir 2013-cü ildə qiymətləndirilir.

*Vergi bəyannamələrinin təqdimetmə müddəti:* Fiziki şəxslər illik vergi bəyannaməsini hesabat (qiymətləndirilmə) ilinin 30 iyun tarixinədək təqdim etməlidirlər. Ailəli şəxslər fərdi gəlir mənbələri üzrə ayrıca vergiyə cəlb edilirlər. Ailəli cütlüklərin birgə əldə etdikləri gəlirin yalnız 50%-i vergiyə cəlb edilir. Əgər ər və ya arvadın yalnız biri gəlir əldə edibsə, onun gəlirinin 30%-i 10090 avrodan artıq olmamaqla digər partnyora şamil edilərək ayrıca vergiyə cəlb olunur. Əgər ailə üzvlərindən birinin, məsələn, arvadın gəliri ərin gəlirinin 30%-dən azdırsa, ərin gəlirinin bir hissəsi arvadın gəlirinə əlavə edilir ki, onun gəliri ərin gəlirinin 30%-nə (10090 avrodan artıq olmamaq şərtilə) bərabər olsun.

*Verginin ödənilmə müddəti:* Vergi öhdəliyi bildirişin göndərildiyi gündən iki ay müddətində yerinə yetirilməlidir. Fərdi sahibkarlar, şirkət direktorları və azad peşə fəaliyyəti ilə məşğul olan şəxslər hesablanmış gəlir vergisi öhdəliklərini il ərzində rüblük cari ödənişlər etməklə icra edirlər.

krossvord



**Yuxarıdan aşağı:**

1.Fıstıqkimilər bitki fəsiləsinə aid ağac; 2.Mineral; 3.Avtomobil markası; 4.Ölkəmizdə rayon; 6.Kanar adalarında aktiv vulkan; 7.Hibbonlar fəsiləsinə aid primatlar cinsi; 8.1953-cü ildən nəşr edilən kişilər üçün jurnal; 13.İki saitin hecadakı qovuşuğu; 14.Yığcam kompüter; 16.Hüceyrələrin bölünməsində mərhələ *(faza)*; 17.Venesuelanın şimalında ştat; 19.Eyni dildə danışan insanların tarixən yaranmış toplusu; 21.Yakutiyada çay; 22.ABŞ-ın Minnesota ştatında şəhər.

**Soldan sağa:**

1.Ən qədim daş dövrü; 5.Dümanın yaratdığı üç muşketyordan biri; 9.Gürcüstanın nəfəsli musiqi aləti *(fleyta növü)*; 10.«Arşın mal alan» bədii filmində (1965) Gülçöhrə obrazını canlandırmış aktrisanın adı; 11.Ordubad rayonunda kənd; 12.Litvada şəhər; 14.Azotun metalla kimyəvi birləşməsi; 15.Son çərşənbə; 18.Musiqili səhnə əsərlərinə orkestr müqəddiməsi, eləcə də sonata formasında müstəqil orkestr əsəri. Simfonik musiqinin bir janrı; 20.«Telefonçu qız» bədii filmində (1962) Mehribanın nənəsini canlandırmış aktrisanın adı; 23.Afrikada dövlət; 24.Azərbaycan oyun havası, Tofiq Quliyevin eyniadlı süitası da vardır; 25.Azərbaycan folklorunda məhrur Novruz qəhrəmanlarından biri; 26.X əsrdə Yaponiyada yaradılmış əlifba.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Foton; 2.Rizotto; 3.Olni; 4.Saturn; 6.Avans; 7.Rodster; 8.Pamflet; 13.Missuri; 14.Təpəgöz; 16.Marafon; 17.Baykal; 19.Kazak; 21.Neyro; 22.Krım.
**Soldan sağa:** 1.Firdovsi; 5.Şair; 9.Tizonit; 10.Aland; 11.Nitq; 12.Profisit; 14.Trotil; 15.Teymur *(Rəcəbov)*; 18.Pakistan ; 20.Aran; 23.Gizir; 24.Korifey; 25.Zəki; 26.Flaminqo.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

idman

# Açıq Bakı Kriterium yarışı başa çatdı



*Azərbaycan Velosiped İdmanı Federasiyasının illik təqvim planına əsasən keçirilən Açıq Bakı Kriterium yarışına yekun vurulub. Veloparkda təşkil olunan yarışda federasiyanın nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin müxtəlif yaş qrupları üzrə 70-ə yaxın idmançısı iştirak edib.*

Martın 15-də start götürən yarışın birinci mərhələsində 8 saylı İxtisaslaşdırılmış Olimpiya İdman Məktəbinin yetirmələri - Azərbaycanın gənclər yığmasının üzvləri Elgün Əlizadə, Nicat Qarayev və Kənan Qəhrəmanlı digər rəqiblərindən daha yaxşı çıxış edərək ilk 3 pilləni tutublar.

Yarışın 2-ci mərhələsində U-15 və U-17 yaş qrupları üzrə velosipedçilər nəyə qadir olduqlarını nümayiş etdiriblər. Nəticələrə gəlincə, 15 yaşa qədər idmançılar arasında Qadir Mustafayev bütün rəqiblərini qabaqlamaqla 1-ci yeri tutub. Xankişi İsgəndərov 2-ci, Maqsud Həsənov 3-cü olub. 17 yaşadək velosipedçilərin mübarizəsində isə Bakir Dadaşov hamıdan uğurlu çıxış edib. Sonrakı 2 yeri Mikayıl Səfərli və Maksim Naperstkov tutub.

Qaliblər Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən diplom və pul mükafati ilə təltif olunublar.

# Gimnastlarımızın uğurlu çıxışı

Azərbaycanın qadın gimnastları Macarıstanın Debresen şəhərində keçirilən bədii gimnastika üzrə Dünya kuboku yarışlarında uğurla çıxış edirlər.

Çoxnövçülükdə 34,483 bal toplayan Azərbaycan komandası birinci yeri tutmuşdur. Yeniyetmələrin komanda turnirində gimnastlarımız Jalə Piriyeva və Züleyxa İsmayılova bürünc medal qazanmışlar.

# Güləşçilərin reytinq siyahısı açıqlanıb

*Beynəlxalq Güləş Federasiyası (FİLA) 2014-cü ilin mart ayına əsasən, güləşçilərin aylıq reytinq siyahısını açıqlamışdır. Bu, güləş qaydalarında və çəki dərəcələrində edilən dəyişikliklərdən sonra ikinci reytinq siyahısıdır.*

Dəyişiklikləri nəzərə alan FİLA artıq hər çəki dərəcəsi üzrə siyahıya əvvəlki kimi 10 deyil, 20 idmançının adını daxil etmişdir.

Yunan-Roma güləşi üzrə reytinq siyahısında Həsən Əliyevin (66 kq, 6-cı), Azad Əliyevin (66 kq, 15-ci), Rəsul Çunayevin (71 kq, 4-cü), Rüstəm Əliyevin (71 kq, 8-ci), Rafiq Hüseynovun (75 kq, 9-cu), Saman Təhmasibinin (85 kq, 2-ci), Şəhriyar Məmmədovun (85 kq, 11-ci) və Sabah Şəriətinin (130 kq, 15-ci) adları yer almışdır.

Sərbəst güləş üzrə reytinq cədvəlinə Yaşar Əliyev (57 kq, 12-ci), Ruslan Surxayev (57 kq, 18-ci), Hacı Əliyev (61 kq, 3-cü), Əhmədnəbi Qvarzatilov (61 kq, 4-cü), Məhəmməd Müslümov (65 kq, 12-ci), Ruslan Dibirhacıyev (70 kq, 8-ci), Emin Əzizov (70 kq, 15-ci), Cəbrayıl Həsənov (74 kq, 14-cü), Əşrəf Əliyev (74 kq, 20-ci), Həmzət Osmanov (86 kq, 7-ci), Aleksandr Qostiyev (86 kq, 19-cu), Xetaq Qazyumov (97 kq, 2-ci), Şərif Şərifov (97 kq, 5-ci), Roman Bəkirov (97 kq, 18-ci) və Cəmaləddin Məhəmmədovun (125 kq, 5-ci) adları daxil edilmişdir.

Qadın güləşi üzrə sıralamada isə Mariya Stadnik (48 kq) və Yuliya Ratkeviç (58 kq) ikinci, Səbirə Əliyeva (75 kq) isə on ikinci pillədə qərarlaşmışlar.

# «Rabitə» Çempionlar Liqasının bürünc medalını qazandı

*Martın 15-də Bakıda qadın voleybol komandaları arasında Çempionlar Liqası yarışlarının «Dördlər finalı» start götürmüşdür.*



«Baku Crystal Hall»da Azərbaycan çempionu «Rabitə» komandası Rusiyanın «Dinamo» (Kazan) kollektivi ilə qarşılaşmışdır.Görüş daha üstün oyun nümayiş etdirən kazanlıların 3:0 hesablı qələbəsi ilə başa çatmışdır.

Növbəti görüşdə Türkiyənin iki təmsilçisi - «Vakıfbank» və «Eczacıbaşı» komandaları üz-üzə gəlmişlər. Rəqibini 3:1 hesabı ilə məğlub edən «Vakıfbank» «Dördlər finalı»nın həlledici mərhələsinə yüksəlmişdir.

Martın 16-da Çempionlar Liqası yarışlarının bürünc medalı uğrunda oyunda «Rabitə» komandası «Eczacıbaşı» kollektivini 3:0 hesabı ilə məğlub edərək, tarixində ilk dəfə bu mötəbər turnirin bürünc medalını qazanmışlar.

Həmin gün Çempionlar Liqası yarışlarının final oyununun start fiti verilmişdir. Türkiyənin «Vakıfbank» və Rusiyanın «Dinamo» (Kazan) komandaları arasında baş tutan qarşılaşmada daha inamlı təsir bağışlayan Rusiya təmsilçisi «Vakıfbank»ı 3:0 hesabı ilə məğlub edərək yarışın qalibi olmuşdur.

mozaika

sağlam həyat tərzi



# Yenə yaz gəlir...

Yaz aylarında havaların istiləşməsi sağlamlığa yaxşı təsir göstərsə də, el arasında «bahar xəstəlikləri» kimi tanınan asqırma, burun axıntısı, qızdırma, öskürək, həddindən artıq halsızlıq və bəzi infeksiyalar insan orqanizmi üçün təhlükəli hesab olunur. Bahar fəslində bir çox insanlarda əzələ ağrıları və spazm, şiddətli baş ağrısı, nəfəs darlığı kimi problemlər də baş verir. Bu baxımdan, «bahar xəstəlikləri»ndən qorunmaq üçün mövsümi xüsusiyyətlər mütləq nəzərə alınmalıdır. Sağlamlıq naminə bəzi sadə qaydalara əməl etmək tələb olunur.

• Yaz aylarında zərurət olmadığı zaman tünlük yerlərdə və bağlı ərazilərdə qalmaq məsləhət deyil. Qapalı mühitlərin havası tez-tez dəyişdirilməlidir.

• Bahar fəslində təzə meyvə və tərəvəz xüsusilə faydalıdır. Hamilə qadınlar, uşaqlar və yaşlılar, bəzi xroniki xəstəliyi olanlar üçün vitamina ehtiyac var ki, bunun da ən etibarlı mənbəyi təzə meyvə-tərəvəzdir. İnsan bədəni üçün suyun vacibliyi unudulmamalı, hər gün yetərli maye qəbul edilməlidir. Mövsümə uyğun olaraq açıq havada edilən müntəzəm məşqlər də insanı «bahar xəstəlikləri»ndən qoruyur.

• Zəruri şərtlərdən biri də düzgün geyim seçməkdir. Mütəxəssislər sintetik parçalardan tikilmiş paltarlardan mümkün qədər imtina etməyi, pambıq parçalara üstünlük verməyi məsləhət görürlər.

• Sağlamlıq üçün yuxu rejiminə diqqət edilməli, gün ərzində keyfiyyətli yuxu alınmalıdır. Çünki yuxusuzluq bədən müqavimətini azaldaraq insanın daha asan xəstələnməsinə səbəb olur. Yuxu rejimi yaş, gündəlik fəaliyyətin ağırlığı və müddəti kimi faktorlara görə təyin edilməlidir.

Görülən tədbirlər yetərli olmadıqda və ya özünü halsız, yorğun hiss etdikdə, öskürək, bəlğəm, nəfəs darlığı, üşümə kimi əlamətlər yaşadıqda mütləq həkimə müraciət etmək lazımdır.

***Ümumdünya Səhiyyə Təşkilatının kayzen.az saytının materialı əsasında hazırlanıb***

texnologiya




# Kosmosdan enerji almaq təklif olunur

*Harvard Universitetinin fizikləri elektrik enerjisini Yer kürəsinin istiliyini kosmosa infraqırmızı şüalandırma ilə əldə etmək təklifini irəli sürmüşlər.*

«Proceedings of the National Academy of Sciences» başlıqlı məqalədə alimlər bu üsulla əldə olunacaq enerjinin həcmini hesablayaraq, onu toplaya biləcək iki növ qurğu təklif etmişlər. Fiziklərin təklif etdikləri intuitivliyin əksi olan üsul termodinamika qanunlarına ziddiyyət təşkil etmir. Enerji Yerdə isidilmiş cisim və soyuq kosmos arasında olan temperatur fərqi sayəsində toplanır. Məqalədə bu enerjini toplamaq üçün iki yanaşma təsvir edilmişdir.

Birinci üsul iki hissəsi müxtəlif temperatura malik qurğunun yaradılmasına əsaslanır. Temperatur fərqi ilə elektrik enerjisini əldə etmək o qədər də çətinlik törətmir. Bunun üçün hamıya məlum olan termoelektrik generatorlar mövcuddur. Alimlərin əsas ideyası qurğunun soyuq hissəsinin temperaturunu kosmosa infraqırmızı şüalandırma ilə azaltmaqdan ibarətdir. Fiziklərin hesablamalarına görə, bu üsulla bir kvadratmetr sahə üçün bir neçə vatt enerji əldə etmək mümkündür.

İkinci üsul istilik səsinin diod elektrik zəncirində və müqavimətində istifadəsinə əsaslanır. Diodun temperaturu (onun içindən cərəyan yalnız bir tərəfə hərəkət edir) müqavimət temperaturdan yüksək olduqda, zəncirdə gərginliyin yaranmasına səbəb olur. Bu gərginlikdən istifadə etmək üçün müqavimət kosmosa infraqırmızı dalğaları şüalandıran effektiv antena rolunda çıxış etməlidir.

Alimlər bu prinsiplər əsasında yaradılan generatorları paneldə yığılmış çoxsaylı mikroskopik diod-rezistor zəncirləri kimi qəbul edirlər.

Enerjinin hasil edilməsi üçün hər iki üsulu alimlər günəş batareyaları ilə kombinasiyada istifadə etməyi nəzərdə tuturlar. Mütəxəssislərin sözlərinə görə, bu, panellərin gecə əks-rejimə - şüalandırıcı rejimə keçməsi səbəbindən onların səmərəliliyini artıracaqdır.

maraqlı

# «Ağıllı plastır»

Böyük Britaniyanın səhiyyə sistemində ürək döyüntüsü, tənəffüs ritmi və bədənin hərarətini izləyəcək «ağıllı plastır»lardan istifadə ediləcək.

Plastır toplanmış məlumatları tibb bacılarına Wi-Fi vasitəsilə hər iki dəqiqədən bir kompüterlərə və mobil telefonlara ötürəcək. Əgər xəstənin səhhətində müəyyən bir problem yaranarsa, plastır vasitəsilə həkimlərə həyəcan siqnalı göndəriləcək.

Plastır yaxın vaxtlarda Britaniyanın 10 dövlət klinikasında sınaqdan keçiriləcək. Sınaqlar xəstələrin çoxluq təşkil etdiyi xəstəxanalarda aparılacaq.

Böyük Britaniyada hər il 6 min pasiyent onlara lazımi səviyyədə nəzarət edilmədiyi üçün dünyasını dəyişir. «Ağıllı plastır»lardan istifadə il ərzində yüzlərlə insanın həyatını xilas edə bilər. Həmçinin, bu, səhiyyə sisteminin hər il 837 milyon dollar məbləğində vəsaitə qənaət edəcəyi deməkdir.

# İtlər üçün vergi ödəniləcək



Özləri ilə Berlinə it gətirən qonaqlar bundan sonra əlavə vergi ödəməli olacaqlar. 2014-cü il yanvar ayının 1-dən Berlindəki mehmanxanalarda əvvəlcədən otaq sifariş verən turistlər əlavə vergi ödəməlidirlər. Bundan sonra isə əlavə ödəniş yalnız insanlara deyil, onların itlərinə də aid ediləcək.

«The Local» portalının məlumatına görə, ölkənin vergi orqanlarının bu barədə rəsmi açıqlaması olub. Lakin açıqlamada ödənilməli verginin məbləğinin nə qədər olduğu göstərilməyib. Qeyd edək ki, hazırda Berlin şəhərinə gələn turistlər mehmanxana xərclərinin 5%-i məbləğində vergi ödəyirlər və bundan şəhər xəzinəsinə illik 25 milyon avro vəsait daxil olacağı gözlənilir.

Müdriklər deyib ki...

***«Bilməkdən qorxma, səhv bilməkdən qorx, çünki bütün fəlakətlər bu səbəbdən baş verir».***

***L.N.Tolstoy (1828-1910)***

